

## Prezident İlham Əliyev Özbəkistan dövlət başçısı ilə görüşüb

*Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub. "Unikal" xəbər verir ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Prezident İlham Əliyevi və birinci xanımı Mehriban Əliyevanı qarşıladılar.*

Səh.2


# UNİKAL

№42 (2127) 11 noyabr 2022-ci il

Qiyməti 50

Qurucusu: Asəf Rzayev    www.unikal.az    unikal-1@mail.ru




## "Sülh müqaviləsinin imzalanmasından qaçmaq üçün təxribatlara əl atırlar"

Ziyafət Əsgərov: "Əgər bir daha əmin olsaq ki, Ermənistan qəti şəkildə sülh müqaviləsini imzalamaqdan imtina edir, danışıqlar onlar üçün imitasiyadır və təxribatları davam etdirirlər, layiqli cavablarını alacaqlar"

*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Ziyafət Əsgərov "Unikal"a müsahibə verib. O, dövlət büdcəsində hərbi xərclərin artırılmasının məqsədindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasından, İranın Azərbaycanı təhdid etməsindən, Rusiya sülhməramlılarının nə zaman Qarabağdan gedəcəyindən və digər məsələlərdən danışıb.*

*-Ziyafət müəllim, dövlət büdcəsində hərbi xərclərə ayrılacaq vəsait rekord həddə çatıb. Hərbi xərclər niyə artırılır və bu vəsaitlər daha çox hansı istiqamətdə xərclənəcək?*

Səh.4



Səh.9

## Azərbaycan Prezidentindən ölkəmizə qarşı olan güclərə xəbərdarlıq

## "Türk dövlətləri heç zaman bu qədər yaxın olmayıb" - Deputat



*"Son dövrlər Türk dövlətləri arasında strateji əlaqələrin sürətlə inkişaf etməsi müşahidə edilir. Bu özünü iqtisadi münasibətlərdə də göstərməkdədir". "Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bu ilin ilk 7 ayında Azərbaycanın Türk...*

Səh.9

## Cahangir Əsgərovdan üzülən ümid...



*Bu ilin iyulunda Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətlərində aviabiletin dəyəri 60 manat məbləğində müəyyən edilib. Rəsmilər bunu xidmət səviyyəsinin yüksəldilməsilə əsaslandırıblar. Sərnişinlər isə Bakı-Naxçıvan-Bakı təyyarələrinin nasazlığından, komfortsuzluğundan gileylənirlər.*

Səh.5

## "Uşaqpulu niyə verilmir?" - Sabir Rüstəmxanlı



*"Biz ailənin tək uşağını müharibəyə aparırıq. Amma uşaqpulu verilmir". "Unikal" xəbər verir ki, bunu deputat Sabir Rüstəmxanlı Milli Məclisin İctimai birliklər və dini qurumlar, Mədəniyyət, Elm və təhsil, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri komitələrinin birgə iclasında deyib.*

Səh.7

# Rəşad Dağlıya belə dəstək oldular



***Xəbər verdiyimiz kimi, Rəşad Dağlı qonşusunu bıçaqlayaraq qətl hadisəsi törədib. Sənət dostları onunla bağlı paylaşım edib.***

Meyxanaçı Ağamirzə "Hələ də şokdayam. Allah köməyimiz olsun" sözlərini yazıb.

Müğənni Üzeyir Mehdizadə "Çox təəssüf edirəm. Rəşad, Allah köməyin olsun, inşallah" sözləri ilə meyxanaçıya dəstək olub.

Müğənni Manaf Ağayev paylaşımına "Allah köməyin olsun qardaş. Sən dəyərli sənətkar, hörmətli oğlansan. Allah tezliklə qapını açsın, inşallah" sözlərini yazıb.

"Allah şeytana lənət eləsin. Allah tezliklə qapını açsın" deyə, Əməkdar artist Anar Heybətov paylaşımında qeyd edib.

Meyxanaçı Orxan Lökbatanlı birlikdə olan şəkillərinə "Allah sənə yar olsun, qardaş" qısa şərhini yazıb.

Meyxanaçı Balaəli Maştağalı isə Rəşad Dağlı ilə bağlı paylaşımında bunları vurğulayıb:

"Qardaşım, Allah sənin köməyin olsun. Allah sənə azadlığı nəsib etsin. Əzab çəkə-çəkə bunu paylaşdım, bilmirəm necə edim, hara gedim, neyləyim. Dolaşıb qalmışam... Əlimizdən nə gəlir, nə lazımdır, gücümüz çatana qədər yox, çatmayana qədər yanındayıq. Biz səninləyik. Səbirli olaq, dua edək. Bizim dövlətimiz, millətimiz sənətkara dəyər verəndi, dayaq olandır".

Aparıcı Tarix Əliyev "Rəhmətlik atam Rəşadin pərəstişkarı idi. Efirdə ad gününü qeyd edəndə zəng vurmuşdu, bu gün yadıma düşdü. Allah tez bir zamanda qapını açsın, balanın xeyir işində qol qaldırıb oynayasan. Meyxananın şahısan, bunu hamı bilir" sözləri ilə meyxanaçıya dəstək olub.

Müğənni Xatun Əliyeva Rəşadın meyxanasını yayımlayaraq "Bu həyatda qorxduğun şey başına gəlirmiş" sözlərini qeyd edib. Qeyd edək ki, meyxanaçı qonşusu, 1979-cu il təvəllüdlü İsgəndər Mehdiyevi qətlə yetirib. Hadisə Qaradağ rayonu, Lökbatan qəsəbəsində gecə saatlarında qeydə alınıb. Hadisəni törətdikdən sonra Rəşad Dağlı Yasamal rayonu Polis İdarəsinə gələrək təslim olub və qətli törətməsini etiraf edib. Mübahisəyə səbəb İsgəndər Mehtiyevin meyxanaçıya zəng edərək söyüş söyməsi olub.

# Nazpəri İlhamə Quliyeva ilə qalmaqalından danışdı



***"O, (Xalq artisti İlhamə Quliyeva - red.) məndən əvvəl böyük sənət adamı olub. Neçə illər efirdə idi, Allah rəhmət etsin, gərək mənimlə münaqişə etməzdi. Bu şeylər olmayaydı".***

Bu sözləri Xalq artisti Nazpəri Dostəliyeva "Səhərin səsi" proqramında deyib. O, mərhum Xalq artisti İlhamə Quliyeva ilə aralarında yaşanan qalmaqaldan danışıb.

Dostəliyeva Quliyevanın onu məhkəməyə verməsini yanlış addım adlandırıb: "Şəxsən mən o xanımın yerinə olsaydım, belə şeylər etməzdim. Çünki o sözünü demiş sənətkardır. Mən dünənki gənc idim. Onun mənimlə münaqişə etməsi doğru deyildi. Onun yerində olsaydım, özümü Nazpəriyə rəqib görməzdim. Çünki mən 30-40 il bu sənətdə öz sözümü demişəmsə, yeni çıxan gənc müğənnini heç zaman özümə rəqib bilməzdim. Bu sənətdə aqressiya yox, paxıllıq var".

Qeyd edək ki, mərhum İlhamə Quliyeva həmkarı Nazpəri Dostəliyevanın onu efirdə parodiya etməsinə qəzəblənərək məhkəməyə vermişdi. Nazpəri qarşı tərəfə 25 min manat təzminat ödəmişdi.



# Roza Zərgərli: "Sevdiyim oğlana acıq edib başqasına ərə getdim"

***"Yağ-bal içində böyümüşəm. Zəngin ailədənəm. Ata, buna görə çox sağol (gülür). Mən zəngin oğlana ərə getdim, amma Rusiyada boşandım. Çünki sevgisiz ailə qurmuşdum. Bizim evliliyimiz valideyinlərin rızası ilə qurulmuşdu. Hərdən valideyinlər də səhv edə bilir. Onun 24, mənim isə 17 yaşım vardı. Bizim 7 yaş fərqimiz vardı".***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, bu sözləri müğənni Roza Zərgərli qonaq olduğu "Elgizlə izlə" ictimai-sosial verilişində deyib.

17 yaşında ailə qurduğunu söyləyən sənətçi bildirib ki, sevdiyi şəxsə acıq etdiyi üçün digər oğlanla evlənib.

"Oğlan məni "kaset"də görmüşdü. Sual verdilər ki, bu oğlanla ailə qurarsan, "Hə" cavabı verdim. Çünki, sevdiyim oğlana acıq etdiyimə görə buna "Hə" demişdim. Bizim dövrümüzdə öncə qız gedirdi, bir kilometr arxasınca oğlan gedirdi. Dərhal deyirdilər ki, bunlar sevgilidir. Uşaq sevgisi olub. "Hə" dediyim oğlan isə tələbə yoldaşım idi".

Rozanın sözlərinə görə, atası onun müğənni olmasına qarşı çıxıb. "Atam mənim müğənni olmağıma qarşı idi. Deyirdi ki, müğənnilik sənəti bizim ailəmizə yaraşmaz. Amma illər sonra o söylədi ki, səhv etmişəm. Gərək sənə dəstək olardım ki, bundan da böyük zirvədə olardın".

R.Zərgərli bildirib ki, o, sənətşünaslıq üzrə müdafiəyə hazırlaşır."Zəngin ailədə doğulsam da, 2000-ci illərdə Bakıya gələndə qucağımda körpə uşaqla (qızı Bənövşə - red.) hər şeyi sıfırdan başlamışam. İndi isə elmlər namizədiyəm, sənətşunaslıq üzrə "doktor" müdafiəmə az qalıb. Bunların hamısına özüm nail olmuşam. Roza Zərgərlini brend kimi özüm etmişəm".

# Şəbnəm jurnalistləri hədələdi: "Bağlatdıracağam"

***Müğənni Şəbnəm Tovuzlu müzakirələrə səbəb olacaq paylaşım edib.***

"Unikal" lent.az-a istinadən xəbər verir ki, ifaçı "Instagram" hekayəsində təhdid dolu sözlər yazıb:

"Bütün xəbər saytlarından xahiş edirəm, mənim ailəm haqda nə isə yazsanız, şikayət edib səhifənizi bağlatdıracağam. Bu vaxta qədər etməmişəm, amma edəcəyəm. tanınmış olan mənəm, ailəm yox".

Qeyd edək ki, müğənni Şəbnəm Tovuzlu bu yaxınlarda qızı Günelə elçiliyə gələnələ "hə" deyib.





## Nazirdən siyasi partiyalara maliyyə yardımı ilə bağlı açıqlama

***"Siyasi partiyalar və QHT-lərə maliyyə ayrılması hər zaman dövlətin diqqətində olacaq".***

"Unikal" xəbə verir ki, bunu maliyyə naziri Samir Şərifov deyib. QHT-lərə vəsaitlərin ayrılmasından danışan nazir bildirib ki, bu istiqamətdə bir neçə təklif səsləndirilib:

"Həm siyasi partiyalar, həm də QHT-lərin fəaliyyətinin maliyyələşdirilməsinə dövlət tərəfindən yardım göstərilir. Bu yardım ola bilsin ki, ildən-ilə istənilən həcmdə artırılmır. Bu məsələ hər zaman dövlətin diqqət mərkəzində olacaq".

Samir Şərifov onu da qeyd edib ki, bizim əsas inkişaf priotetimiz Qarabağın dirçəlməsi olmalıdır.

"Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi cənab Prezident tərəfindən bizim qarşımızda əsas priotet kimi qoyulub. Hamımız bunun üçün çalışmalıyıq. Eyni zamanda bizim əsas qarşımızda duran vəzifələrimizdən biri də müdafiə qüvvələrimizi gücləndirməkdir. Qalan məsələlər dövlət büdcəsinin gücü yetdiyi qədər həll olunacaq", - deyə nazir vurğulayıb.

Vətən müharibəsində qazandığımız Zəfərlə bağlı yeni filmlərin çəkilməsinə bu ilin dövlət büdcəsində maliyyə ayrılıb. "Cari ildə olduğu kimi, gələn ilin büdcəsindən də müvafiq olaraq filmlər üçün aiddiyatı qurumlara maliyyə ayrılır. İndi onların necə yerinə yetirilməsinə diqqət yetirmək lazımdır", - nazir bildirib.

## Mədəniyyət sahəsində maaşlar çox aşağıdır - Qənirə Paşayeva

***"Mədəniyyətin bəzi sahələrində əməkhaqları çox aşağıdır, bununla bağlı tədbirlər görməliyik".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva parlamentin İctimai birliklər və dini qurumlar, Mədəniyyət, Elm və təhsil, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri komitələrinin birgə iclasında deyib.

"Biz mədəniyyət sahəsindən danışanda çox adam burada müğənniləri, şou aləminin nümayəndələrini nəzərdə tutur. Amma mədəniyyət nümayəndələrini düzgün qiymətləndirmək və stimullaşdırmaq lazımdır. Mədəniyyət sahəsinə gedənlərin sayı azalır. Ona görə də mədəniyyət sahəsinin bir sıra yerlərində çalışan gənclərin güzəştli ipotekadan yararlanmasına şərait yaradılmasını təklif edirəm",- deyə komitə sədri vurğulayıb.

# Dövlət Əmək Müfəttişliyinin dəyişməyən "iş prinsipi"...

## İllər ötür, ancaq bu qurum hələ də işçinin deyil, işəgötürənin maraqlarından çıxış eləməkdə ittiham olunur

***Bu günlərdə yerli KİV-də maraqlı bir məlumata rast gəldik: həmin məlumatda deyilirdi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) bu quruma daxil olan şikayətlərə formal cavab verməklə məşğuldur.***

Neftçilərin Hüquqlarının Müdafiəsi Birliyinin hüquqşünası Azər Quliyevin dediyinə görə, Xidmət tərəfindən işçinin müraciətinə verilmiş və qanunvericiliyə uyğun yoxlanılmamış formal cavablardan biri belə olur: "Müraciətinizlə əlaqədar __________ Şirkətinin rəhbərliyi tərəfindən Dövlət Əmək Müfəttişliyi Xidmətinin Bakı şəhər İdarəsinə ünvanlanmış məktubda 2022-ci ilin iyun-iyul aylarında müəyyən səbəbdən iş yerində olmayan başqa işçinin əmək funksiyalarını yerinə yetirmədiyiniz, Sizə boş vəzifə üzrə əmək funksiyasının icrasının həvalə olunmadığı, öz xahişiniz və işlədiyiniz gəmi kapitanının xahişi nəzərə alınaraq maddi vəziyyətinizi yaxşılaşdırmaq üçün gəmidə vakant olan kapitanın baş köməkçisi-DP üzrə operator vəzifəsinin müvəqqəti icrasına razılıq verilmiş və icra etdiyiniz vəzifə üçün təyin edilmiş tarif maaşına uyğun olaraq müvafiq qaydada əmək haqqı hesablanaraq Sizə ödənildiyi bildirilmişdir".

Quliyev deyib ki, bu və bənzər cavablar konkret şikayətçiyə verilmiş formal cavabdır!

Hüquqşünas onu da vurğulayıb ki, Dövlət Əmək Müfəttişliyi Xidməti əmək qanunvericiliyinə dövlət nəzarətini həyata keçirən orqandır, işçiyə müəssisənin cavabı əsasında deyil, şikayətə uyğun araşdırma aparmaqla cavab verməlidir. Əgər işçi müstəsna hallar istisna olmaqla normadan artıq işlədilirsə, bu əmək qanunvericiliyinin pozulmasıdır və işəgötürən inzibati məsuliyyətə cəlb olunmalıdır.

Onun sözlərinə görə, Xidmətin formal cavab məktublarında qeyd edilir ki, "...müəssisə rəhbərliyi bildirir ki, icra etdiyiniz vəzifə üçün təyin edilmiş tarif maaşına uyğun olaraq müvafiq qaydada əmək haqqı hesablanaraq Sizə ödənilmişdir". Əgər işçi bildirirsə ki, əlavə iş saatlarına görə mənə pul ödənilməyib, işəgötürən isə bildirir ki, ödəmişik, onda bu mübahisənin hüquqi həlli çətin deyil ki, işçinin iş saatları və ödənilən əmək haqqı barədə maliyyə sənədlərini almaqla da asanlıqla yoxlamaq olardı. Yəni, müfəttişlik araşdırmalı idi ki, bu ödənişlər aparılıb yoxsa, yox, nəinki, işəgötürənin cavabını işçiyə göndərmək lazım idi. Sitat: "Onu da təəssüf hissi ilə bildirim ki, Müfəttişliyin işçilərə həmişə olduğu kimi verdiyi bu formal cavabdakı "...müraciətinizdə qeyd etdiyiniz məsələnin həlli ilə əlaqədar məhkəməyə müraciət etmək hüququnuz vardır" kimi formal münasibəti təəssüf hissi doğurur. Müfəttişliyin vəzifəsi nədir, məhkəmədən qabaq bu şikayəti qanunauyğun araşdırmaq və müvafiq tədbir görmək deyilmi? Müfəttişliyin vəzifəsi işəgötürənin yazdığı cavabı işçiyə göndərmək deyil, əlbəttə, işəgötürən təbii olaraq şikayəti qəbul etməyəcək, etsəydi mübahisə də yaranmazdı. Hansı ki Əmək Məcəlləsinin 15.2-ci maddəsində yazılıb: "Dövlət Əmək Müfəttişliyi Xidməti- əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqandır, öz səlahiyyəti çərçivəsində əmək qanunvericiliyinin pozulmasında təqsirkar şəxslərdən yol verdikləri hüquq pozuntularının aradan qaldırılmasını tələb etmək, onları İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş hallarda və qaydada inzibati məsuliyyətə cəlb etmək və digər məsuliyyətə cəlb olunması üçün müvafiq orqanlar qarşısında məsələ qaldırmaq hüququna malikdir".

Qeyd etmək yerinə düşər ki, uzun illərdir DƏMX ölkədə işçinin yox, işəgötürənin tərəfini tutmaqda ittiham olunur. Halbuki bu qurum mülkiyyət və təşkilatı-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən Azərbaycan Respublikasının hüquqi şəxsləri, xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (işəgötürənlər) tərəfindən Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır! Qısacası, onun vəzifəsi əmək qanunvericiliyinə əməl olunması sahəsində, o cümlədən işçilərlə əmək münasibətlərinin əmək müqaviləsi (kontraktı) əsasında tənzimlənməsi, əməyin ödənilməsi, məzuniyyət və istirahət hüququnun təmin edilməsi, əməyin mühafizəsi, texniki təhlükəsizlik, əmək şəraiti, əmək xəsarəti ilə əlaqədar ödənclərin ödənilməsi, işçilərin və iş yerlərinin attestasiyası, işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortası, iş prosesində əmək və əməyin mühafizəsi tələblərinə (iş davamiyyəti, əməyin təhlükəsizliyi, əməyin gigiyenası, qadınların, əlillərin, yaşı 18-dən az olan şəxslərin əməyindən istifadə olunması və s.) riayət edilməsi üzrə və əmək qanunvericiliyinin tələblərinə uyğun digər istiqamətlərdə dövlət nəzarətini həyata keçirmək, əmək qanunvericiliyinin pozulmasında təqsirkar şəxsləri Azərbaycan Respublikasının inzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə cəlb etmək və digər məsuliyyətə cəlb olunması üçün müvafiq dövlət orqanları qarşısında məsələ qaldırmaq, eyni zamanda işəgötürənlərə və işçilərə əmək qanunvericiliyinin tətbiqi barədə metodiki köməklik göstərməkdir.




Onu da vurğulamaq lazımdır ki, DƏMX-nin rəhbərliyi vaxtaşırı dəyişsə də, qurumdan narazılıqlar, onun fəaliyyəti ilə bağlı tənqidlər səngimir. Belə çıxır ki, Xidmət rəisi dəyişsə də, iş prinsipi dəyişmir, bu dövlət orqanı ilə bağlı narazılıqlar, giley-güzarlar olduğu kimi qalır. Həmin narazılıqların, giley-güzarların əsasını da DƏMX-nin əksər hallarda işçinin yox, işəgötürənin maraqlarından çıxış eləməsidir. Həm də hansısa (!) səbəblərdən!

Düzdür, Xidmətin rəsmi açıqlamalarından belə nəticə çıxır ki, əmək hüquqlarının tapdanmasına qarşı ardıcıl, güzəştsiz tədbirlər görülür, belə hallara yol verənlər cərimələnir və s. Ancaq reallıq da göz önündədir: mediada, sosial şəbəkələrdə əmək hüquqlarının pozulmasından gileylənənlərin sayı artır. Bu necə ola bilər?!

Sonda: Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəsmiləri, adətən, qurumun ünvanına səslənən bütün tənqidləri təkzib və inkar eləmək yolu tuturlar. O zaman ortaya sual çıxır: bu qurumun fəaliyyətindən narazılıq edənlər, doğrudanmı, tamamilə haqsızdırlar?!

***Sənan Mirzə***

# Azərbaycan Prezidentindən ölkəmizə qarşı olan güclərə xəbərdarlıq

## "Xarici siyasətdə isə biz əməkdaşlığın və sülhün tərəfdarıyıq, Azərbaycana qarşı olan istənilən təhdidə cavab vermək gücündəyik"

***Prezident İlham Əliyev 8 noyabr Zəfər günü münasibətilə Şuşada hərbçilər qarşısında çıxış edərək önəmli mesajlar səsləndirib. Dövlət başçısı İranın Azərbaycanla sərhəddə hərbi təlimlər keçirməsi və Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının mandatının artırılması məsələsinə də toxunaraq, ölkəmizin mövqeyini bəyan edib.***

"Ordumuz qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq göstərib. Lazım olarsa, bir daha göstərərik, istədiyimizə nail olarıq, bunu hər kəs bilir və bizim sərhədimizdə Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər. Bizi heç kim qorxuda bilməz. Ermənistan yaxşı qonşuluq siyasəti aparmaq istəyirsə, birincisi, 2020-ci ilin 10 noyabr Bəyanatının bütün müddəalarını yerinə yetirməlidir. Azərbaycanla sülh üzrə aparılan danışıqlarda səmimi olmalıdır. Süni şəkildə vaxt uzatmamalıdır, hansısa möcüzəni gözləməməlidir ki, kimsə gəlib bunların yerinə vuruşacaq. Heç kim gəlib onların yerinə vuruşmayacaq, gəlib vuruşsa da, qarşısında yenə də Azərbaycan Ordusunu görəcək",- Prezident İlham Əliyev İranın keçirdiyi təlimlərlə bağlı deyib.



Rusiya sülhməramlılarının aqibətinə gəlincə, Ali Baş Komandan onların Qarabağda müvəqqəti yerləşdirildiyini diqqətə çatdırıb: "Rus sülhməramlılar orada müvəqqəti yerləşiblər. 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir".

"Unikal"a açıqlamasında deputat Aydın Mirzəzadə deyib ki, Prezident İlham Əliyev Zəfər Günü Şuşada etdiyi çıxışında növbəti dəfə Azərbaycanın dövlətçilik prinsiplərini açıq şəkildə ortaya qoydu. O bildirib ki, Azərbaycanın əsas dövlətçilik prinsipləri ərazi bütövlüyünü qorumaq, Ermənistanla normal qonşuluq münasibətləri yaratmaq və təhdidlərə lazımi cavabların verilməsindən ibarətdir: "Prezident bir daha göstərdi ki, Azərbaycan öz müstəqilliyini, suverenliyini qorumaq bacarığındadır. Azərbaycana qarşı hər hansı təhdidin qarşısı alınacaq və heç kimin bizim daxili işlərimizə qarışmasına imkan verilməyəcək. Burada hansı dövlətdən söhbət getdiyinin əhəmiyyəti yoxdur. Əsas odur ki, heç bir dövlət Azərbaycanın daxili işlərinə qarışmasın və onun ərazi bütövlüyünü şübhə altına almasın. Hesab edirəm ki, Prezident İlham Əliyevin Şuşadakı çıxışı xaricdəki anti-Azərbaycan dairələrinə xəbərdarlıqdır. Prezident tərəfindən belə xəbərdarlıqlar əvvəl də olub, indi də səsləndirilir. Dünya Azərbaycanın bu mövqeyini qəbul etməlidir. Bizim dostlarımızın da sayı çoxdur. Onların içərisində Türkiyəni xüsusilə qeyd etmək olar. Azərbaycan isə öz vətəndaşlarının maraqlarını qoruyur, iqtisadiyyatını gücləndirir, əhalinin sosial vəziyyətini yaxşılaşdırır, işğaldan azad edilən ərazilərdə böyük quruculuq işləri həyata keçirir. Xarici siyasətdə isə biz əməkdaşlığın və sülhün tərəfdarıyıq. Azərbaycana qarşı olan istənilən təhdidə cavab vermək gücündəyik".

Son zamanlar İranla yaşanan gərginliyə gəlincə isə, "Azərbaycan bu məsələdə də öz mövqeyini qoruyur. Biz öz müstəqilliyimizi və suverenliyimizi qorumaq gücündəyik. İran tərəfi də bunu görür. İranın Azərbaycana qarşı siyasi təxribatlarının və hədə-qorxu gəlmək istəklərinin heç bir perspektivi yoxdur. Azərbaycan istənilən təxribatın qarşısını almağa və ona cavab verməyə qadirdir. Buna baxmayaraq, Azərbaycan İranla yaxşı münasibətlərin və bir-birinin daxili işlərinə qarışmamağın tərəfdarıdır. Əgər İranın müəyyən dairələri Azərbaycanla münasibətləri korlamaq fikrinə düşürlərsə, bu, ilk növbədə İranın öz maraqlarına ziddir. Azərbaycanı qorxutmaq və yaxud kiminsə təsiri altına salmaq qətiyyən mümkün deyil", - deyə A. Mirzəzadə qeyd edib.

Siyasi şərhçi Aqşin Kərimov isə Prezident İlham Əliyevin bəyanatlarından çıxan nəticələr barədə fikirlərini bölüşüb. Onun sözlərinə görə, Prezident Əliyev ərazi suverenliyi, müstəqillik mövzularında çox prinsipialdır və Azərbaycan dövləti Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə, o cümlədən Xankəndidə tamhüquqlu suverenliyini bərpa edəcək: "Rusiya sülhməramlıları Azərbaycanda işğalçı fəaliyyət apara bilməz (heç aparmırlar da) və onların xidmət müddəti yekunlaşanda ölkəni tərk etməlidir. Ermənilər sülhməramlılara bel bağlamasınlar, çünki rus qoşunları onların qoruyucusu rolunu oynaya bilməyəcəklər. İlk dəfə Prezident səviyyəsində sentyabr ayındakı sərhəd əməliyyatlarının hansı ərazi nailiyyəti ilə nəticələndiyi açıqlandı. Hərçənd ki, Prezident özü də bəzi detalları tam demədi. Azərbaycan sentyabrda nəzarəti ələ keçirdiyi ərazilərdən geri çəkilməyib və təxribatlar davam edərsə, oradan və başqa istiqamətlərdən yeni əməliyyatlar həyata keçirə bilər. İranın təlimləri Azərbaycanı qorxutmur".

BAXCP sədri, millət vəkili Qüdrət Həsənquliyev bildirib ki, Azərbaycan Prezidenti dəfələrlə sülh sazişi imzalanmalı, sonra delimitasiya və demarkasiya işlərinə başlanılmalı olduğunu bəyan edib. "Hazırda bu işlər paralel aparılır, düşünürəm ki, bu, bizim sülhə nail olmağımız üçün danışıqlardakı daha konstruktiv mövqeyimizlə bağlıdır. Amma ermənipərəst vasitəçilər nəzərə almırlar ki, sülh olmadan necə düşmən dövlətlə əməkdaşlıq etmək, delimitasiya işlərini həyata keçirmək olar? Müstəqilliyimizdən 31 ildən artıq vaxt keçir, biz hələ də bəzi qonşularımızla sərhədlərin delimitasiyası məsələlərini tam həll edə bilməmişik. Onlar sülh istəmirlər. Sərhədləri delimitasiya etməklə Ermənistanın təhlükəsizliyini təmin etmək, münaqişəni dondurmaq, özləri üçün əlverişli məqamda sərhəddə təxribatlar təşkil etməklə KTMT-ni münaqişəyə cəlb etmək imkanı əldə etməyi hədəfləyirlər.

Prezident Şuşada birmənalı şəkildə bəyan etdi ki, Ermənistan 10 noyabr sazişini icra etməsə, Azərbaycan qəti addımlar atacaq. Bu o deməkdir ki, Ermənistan öz qoşunlarını Azərbaycandan tezliklə, könüllü olaraq çıxarmasa, biz bunu güc tətbiq etməklə edəcəyik. Naxçıvana maneəsiz gediş-gəliş təmin olunmasa, vaxtilə Ermənistanla Azərbaycan arasında mövcud olmuş kommunikasiyalar açılmayacaq, Laçın dəhlizi bağlanacaq. Sülh sazişi imzalanmasa, Ermənistanla diplomatik əlaqələr, gediş-gəliş, əməkdaşlıq da olmayacaq. O zaman Qarabağdakı erməni sakinlər istəsələr, Ermənistana Gürcüstan üzərindən gedə bilərlər. Biz Naxçıvana İran üzərindən getdiyimiz kimi".

**M.İbrahimli**

---



# "Türk dövlətləri heç zaman bu qədər yaxın olmayıb" - Deputat

***"Son dövrlər Türk dövlətləri arasında strateji əlaqələrin sürətlə inkişaf etməsi müşahidə edilir. Bu özünü iqtisadi münasibətlərdə də göstərməkdədir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bu ilin ilk 7 ayında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi 3 milyard 991 milyon dollar olub.

"Həmin müddətdə Türkiyə ilə 3 milyard 376 milyon, Qazaxıstan ilə 350.1 milyon, Türkmənistan ilə 156.9 milyon, Özbəkistan ilə 103.7 milyon, Qırğızstan ilə isə 4.5 milyon dollar dövriyyə qeydə alınıb. Ötən ilin ilk 7 ayında isə ölkəmiz qardaş Türk dövlətləri ilə 2 milyard 662 milyon dollarlıq ticarət dövriyyəsinə sahib olub. 2021-ci ilin həmin müddətində Türkiyə ilə 2 milyard 502 milyon, Qazaxıstan ilə 58.4 milyon, Özbəkistan 54.2 milyon, Türkmənistan ilə 41.6 milyon, Qırğızıstan ilə 5.7 milyon dollar dövriyyəyə malik olmuşuq. Bu isə o deməkdir ki, bu ilin ilk 7 ayında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi ötən ilin uyğun dövrü ilə müqayisədə 50.0 faiz artıb. Kifayət qədər ciddi artımdır. Türk dövlətləri yeni inkişaf və əməkdaşlıq mərhələsinə qədəm qoyur. İnvestisiya fondlarının yaradılması, strateji qərarlar, birgə layihələr Türk dünyasını daha da yaxınlaşdıracaq və bütövləşdirəcək".

Deputat qeyd edib ki, digər tərəfdən, Türk Dövlətləri Təşkilatı regionda daha da real gücə çevrilməkdədir:

"Məsələ sadədir. Əgər Türk ölkələri bir dövlət olsaydılar, o zaman həmin dövlət alıcılıq qabiliyyəti nəzərə alınmaqla ÜDM-in həcminə görə dünyada ən böyük 7-ci ölkə olardı. Belə k, Türk dövlətlərinin alıcılıq qabiliyyəti (PPP) nəzərə alınmaqla ÜDM-i 4 trilyon 586 milyard dollardır. Bu Böyük Britaniya, Fransa və İtaliya kimi ölkələr ilə müqayisədə daha böyük real iqtisadiyyat deməkdir. Belə ki, alıcılıq qabiliyyəti ilə Türkiyə 3 trilyon 320 milyard, Qazaxıstan 596,7 milyard, Özbəkistan 334.3 milyard, Azərbaycan 178.7 milyard, Türkmənistan 117.8 milyard və Qırğızıstan 39.2 milyard dollar ÜDM-ə malikdirlər. Strateji coğrafi yerləşməni də keyfiyyət meyarı olaraq nəzərə alsaq, o zaman Türk dünyasının gücünü təsəvvür etmək çətin olmaz. Türk dünyası bütövləşir, əməkdaşlıq edir və inkişaf edir. Türk dövlətləri indiki qədər heç zaman bu qədər yaxın və birgə olmayıblar. Buna sevinənlər də var, narahat olanlar da".

**Anar Kəlbiyev**

# Prezident İlham Əliyev Özbəkistan dövlət başçısı ilə görüşüb



***Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.***

"Unikal" xəbər verir ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Prezident İlham Əliyevi və birinci xanımı Mehriban Əliyevanı qarşıladılar.

Dövlət başçıları və birinci xanımlar birgə foto çəkdirdilər.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dedi:

- Hörmətli İlham Heydər oğlu, bir daha Özbəkistana xoş gəlmisiniz. Sizi Səmərqənddə görmək mənə çox xoşdur. Çox şadam ki, Siz xanımınız Mehriban Arif qızı ilə birlikdə gəlmisiniz. Ona görə ki, mən demişəm, bu, rəmzi məna daşıyır. Dediyim kimi, sabahkı Sammit rəmzi məna daşıyır, ona görə ki, bu tədbirin əsasını Naxçıvanda qoymuşuq, İlham Heydər oğlu, Sizin Vətəninizdə, atanızın Vətənində. Biz görürük ki, bu istiqamətdə çoxsaylı tarixi hadisələr baş verib. Özbəkistanda bu tarixi hadisə ilk dəfədir. Nə üçün Səmərqənddə təşkil olunması da böyük əhəmiyyət kəsb edir, ona görə ki, sabah Səmərqənddə ilk dəfə olaraq Zirvə Görüşü yeni adla keçiriləcək. Bütün bunlar hamısı qarşılıqlı surətdə əlaqəlidir. Beləliklə, xoş gəlmisiniz!

Danışıqlara başlamazdan əvvəl Sizi böyük Qələbə - 8 Noyabr günü münasibətilə təbrik etmək istəyirəm. Sizin yaxın dostlarınız kimi biz də bu Zəfəri bayram etmişik. Bu münasibətlə Sizi bir daha təbrik edirəm. 12 Noyabr - Konstitusiya Gününüzü təbrik edirəm. Sabah sizdə Milli Olimpiya Komitəsinin 30 illiyidir, bu münasibətlə də təbrik edirəm, - Siz bu təşkilata rəhbərlik edirsiniz. Bunlar elə hadisələrdir ki, yaxşı dostlar onları heç vaxt unutmamalıdırlar. Mən Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əlbəttə, dediyimiz kimi, bizim münasibətlər strateji əhəmiyyət daşıyır. Bir misal göstərim - bu il Sizinlə üçüncü dəfədir görüşürük. Bu, münasibətlərimizin strateji əhəmiyyətinə dəlalət edir. Siz üçüncü dəfədir ki, Özbəkistana səfər edirsiniz, buna görə Sizə çox təşəkkür edirəm. Əlaqələrimiz sistemli olub və ən başlıcası, konkret nəticələr verir. Bizim komandalar artıq bir-birini tanıyır. Biz Sizin gəlişinizə hazırlaşmışıq, çoxlu ciddi layihələr var, genişproqramlı çoxlu səfərlər olub. Artıq görüşürlər, söhbət edirlər. Hökumətlərarası Komissiyanın iclası uğurla, çox yaxşı keçib və həmkarlar Hökumətlərarası Komissiyanın sədri ilə söhbət ediblər, yaxşı plan nəzərdə tutublar.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

- Sağ olun, hörmətli Şavkat Miromonoviç.

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Yenidən Səmərqənddə olmağıma çox şadam. Azərbaycanın Vətən müharibəsində Qələbəsi münasibətilə təbrikinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz qardaş özbək xalqının, şəxsən Sizin bizə, ölkəmizə və Azərbaycanın ədaləti bərpa etməsinə münasibətinizi çox yüksək qiymətləndiririk. Biz bu dəstəyi müharibə dövründə də, sonra da hiss edirdik. Əlbəttə, işğaldan azad edilmiş Füzuli şəhərində məktəb tikmək təşəbbüsünüzə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, ərazilərin bərpası işinə ilk xarici töhfə olacaq və biz bunu çox yüksək qiymətləndiririk. İndicə Sizinlə informasiya mübadiləsi etdiyimiz kimi, məktəbin tikintisi artıq başlanıb. Bu məktəb bizim xalqlarımızın qardaşlığının rəmzi olacaq.

Həqiqətən son vaxtlar biz çox yaxınlaşmışıq. Fikrimcə, bu da bizim əcdadlarımızın iradəsidir və xalqlarımız arasında tarixi qardaşlıq əlaqələri məcrasında baş verir. Yeddi ay ərzində üçüncü dəfədir ki, Özbəkistana səfər edirəm. Hər dəfə şəxsən Sizə və qardaş özbək xalqına böyük məhəbbətlə, böyük hörmətlə gəlirəm və burada olandan sonra Sizin rəhbərliyinizlə Özbəkistanın qazandığı böyük nailiyyətlər haqqında danışıram. Daşkəndi, Xivəni, Səmərqəndi ziyarət etmək kifayətdir. Mən artıq Özbəkistanla kifayət qədər yaxşı tanışam və deməliyəm, birmənalı şəkildə qeyd etmək olar ki, Səmərqənd mühüm beynəlxalq siyasi mərkəzə çevrilib. Ona görə ki, burada dünya liderlərinin iştirakı ilə dünya səviyyəli müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu münasibətlə də Sizi təbrik edirəm.

Əlbəttə, Sizin qeyd etdiyiniz mövzular gündəlikdədir. Biz Sizinlə razılaşdıq ki, qərarlarımızın yerinə yetirilməsinə nəzarət edəcəyik. Sizin qeyd etdiyiniz kimi, bütün istiqamətlər üzrə yaxşı proseslər gedir.

Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparıldı. Xüsusilə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində əldə olunmuş razılaşmaların icrası istiqamətində görülən işlərə toxunuldu, bu baxımdan hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu.

Söhbət zamanı maşınqayırma sahəsində əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində müsbət nəticələrin olduğu bildirildi. Əczaçılıq, energetika sahələrində nailiyyətlər, həmçinin ipəkçilik sahəsində iki ölkə arasında qurulmuş uğurlu əməkdaşlıq layihəsindən çıxış edərək pambıqçılıq və toxuculuq sahələrində də ölkələrimiz arasında nailiyyətlərin olduğu vurğulandı. Bundan başqa, iki ölkənin regionları arasında əməkdaşlığın təşviqi məqsədilə bu ilin sonunda regionlararası forumun keçiriləcəyi qeyd olundu. Bu Forum çərçivəsində iki ölkənin bir sıra şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması barədə anlaşmaların imzalanacağı müsbət hal kimi vurğulandı. Bu tədbirlərin Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətlərinin inkişafına mühüm töhfə verəcəyi ifadə edildi.

Dövlət başçıları, həmçinin iki ölkə arasında humanitar-mədəni sahədə əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd edərək, mədəniyyət qruplarının intensiv qastrol səfərlərinin təşkilinin vacibliyini bildirdilər.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd şəhərində keçirilməsinin böyük tarixi və rəmzi məna daşıdığı vurğulandı. Xüsusən təşkilatın adının dəyişdirilməsindən sonra ilk Zirvə Görüşünün bu tarixi şəhərdə təşkil olunmasının önəmi qeyd edildi.

# Səfirimiz İran XİN-ə çağırıldı



***Azərbaycan Respublikasının səfiri Əli Əlizadə bu gün axşam saatlarında İran Xarici İşlər Nazirliyinə çağırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə İRNA məlumat yayıb.

Səfirin XİN-ə çağırılmasına Azərbaycan mediasında İran əleyhinə təbliğatın aparılması səbəb kimi göstərilib.

# Ərdoğan Özbəkistan Prezidenti ilə görüşüb



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Administrasiyası məlumat yayıb.

Qeyd olunub ki, görüş Türk Dövlətləri Təşkilatının 9-cu Zirvə toplantısının baş tutacağı Özbəkistanda keçirilib.

# "Türkiyə ilə qaz əməkdaşlığını G20-də açıqlayacağıq" - Zaxarova



***Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova gələn həftə keçiriləcək G20 Liderlər Sammitində Türkiyə ilə qaz əməkdaşlığının inkişafı, taxıl və gübrə təchizatının təşkili ilə bağlı bir sıra xüsusi təşəbbüslərin elan edilməsinin planlaşdırıldığını açıqlayıb.***

"Unikal" xəbər verir ki, G20 sammitində Rusiya nümayəndə heyətinin planlarından danışan Zaxarova, Rusiya ilə Türkiyə arasında təbii qaz və taxıl müqavilələrinin inkişaf etdirilməsi məqsədinin həyata keçiriləcəyini bildirib.

"Rusiya kommersiya və humanitar əsasda xarici bazarlara ərzaq məhsulları və enerji resurslarının etibarlı təchizatçısı olmağa hazır olduğunu təsdiq edəcək, lakin hər cür qiymət və digər xarici təzyiqləri rədd edəcək. Bu kontekstdə Türkiyə ilə qaz əməkdaşlığının inkişafı, taxıl və gübrə tədarükünün təşkili və bir sıra xüsusi təşəbbüslərin elan edilməsi planlaşdırılır"", - deyə Zaxarova bildirib.

***Gültəkin Ələsgər***

# Rəşad Dağlı barəsində 4 ay həbs qətimkan tədbiri seçildi



***Tanışını qətlə yetirməkdə təqsirləndirilən meyxanaçı Rəşad Dağlı (Əmirov) barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimata baxılıb.***

"Unikal" xəbər verir ki, Qaradağ Rayon Məhkəməsində hakim Teymur Qurbanovun sədrliyi ilə keçirilən iclasda qərar elan olunub.

Qərara əsasən Rəşad Dağlı barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

# Son sutkada yoluxanların sayı AÇIQLANDI



***Azərbaycanda son sutkada koronavirus infeksiyasına 8 yeni yoluxma faktı qeydə alınıb, 49 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# "Azərbaycan Ordusu Ermənistan bölmələrinə atəş açmayıb" - MN

***"Azərbaycan Ordusu Ermənistan bölmələrinə atəş açmayıb".***



Bu barədə "Unikal" a Müdafiə Nazirliyindən bildirilib. "Noyabrın 10-u saat 10:30-da ordumuzun bölmələri tərəfindən guya atəş açılması və nəticədə Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusunun yaralanması barədə Ermənistan müdafiə nazirliyinin yaydığı məlumat yalandır. Bildiririk ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə atəş açılmayıb", - məlumatda qeyd edilib.

# Azərbaycan quş qripinə görə bu ərazilərdən idxala məhdudiyyət qoydu

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi başqa ölkələrdən respublikamızın ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından (WOAH) daxil olan məlumatlar əsasında dünyadakı epizootik vəziyyətə uyğun olaraq müvafiq tədbirlər həyata keçirir.***

"Unikal" Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə istinadən xəbər verir ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının rəsmi məlumatına əsasən, İsveç Krallığının Esterqötlandiya əyalətində Nyukasl, Macarıstanın Baç-Kişkun inzibati ərazi vahidində isə yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.

Respublika ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə qeyd olunan ərazilərdən WOAH-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının, quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunub.



Eyni zamanda nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə İsveç Krallığının Esterqotlandiya əyalətindən və Macarıstanın Baç-Kişkun inzibati ərazi vahidindən gələn, yaxud tranzitlə keçən nəqliyyat vasitələri ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

# Deputatdan təklif: "Qəbul prosesini asanlaşdırıb, təhsil prosesini çətinləşdirək"

***Təhsil məsələləri həmişə gündəmə gətirilir. Mövzumuz universitetlərimizin beynəlxalq reytinqlərdə yeridir. Beynəlxalq reytinqlər sadəcə bir göstəricidir. O reytinqlərdə niyə olmamağımıza cavab tapmalı və o siyahıya daxil olmaq üçün hansı addımları atmalı olduğumuzu düşünməliyik.***

Bunu Milli Məclisin deputatı Musa Qasımlı "Azərbaycan universitetləri beynəlxalq reytinq müstəvisində: gerçəklik və hədəflər" mövzusunda keçirilən dəyirmi masada deyib.



O bildirib ki, elmi-tədqiqat sahəsində, təhsildə, dərsliklərdə, sosial məsələlərdəki problemlər araşdırılmalıdır.

Universitetlərdə dərslərin interaktiv keçirilməsinin, praktiki vərdişlərin artırılmasının vacib olduğunu vurğulayan deputat ali məktəblərə qəbul qaydalarının dəyişdirilməsini təklif edib:

"Universitetlərin qapılarını açaq, kim ali təhsil almaq istəyirsə, gəlsin. Amma qəbul prosesini asanlaşdırıb, təhsil prosesini çətinləşdirək. Biz təhsilimizi bu baxımdan sağlamlaşdırmalıyıq ki, gələcəkdə problemlər olmasın".

# İsa Həbibbəyli şəhidin qardaşını şöbə müdiri təyin etdi

***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin sərəncamı ilə texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov AMEA Rəyasət Heyəti aparatının Elmi, texniki və innovativ fəaliyyətin təşkili şöbəsinin müdiri vəzifəsinə təyin olunub.***

Bu barədə "Unikal"a AMEA-dan xəbər verilib.

H. Hüseynov 2018-ci ildən yeni vəzifəyə təyin edilənədək həmin şöbənin müdirinin müavini vəzifəsində işləyib.

Hüseyn Hüseynovun qardaşı Ramil Hüseynov Birinci Qarabağ müharibəsində şəhid olub.

# Samir Şərifov güzəştli ipotekadan danışdı

***"Bu gün Azərbaycanda güzəştli ipotekaya çıxış imkanları kifayət qədər böyük təbəqəni əhatə edir".***

"Unikal" xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə, Mədəniyyət komitələrinin bu gün keçirilən birgə iclasında 2023-cü ilin dövlət büdcəsinin müzakirəsi zamanı mədəniyyət sahəsində fəaliyyət göstərən şəxslərə güzəştli şərtlərlə ipoteka verilməsi barədə təklifə münasibət bildirərkən qeyd edib.

"Bu təklif qiymətləndirilməlidir. Bu gün güzəştli ipotekaya çıxış imkanları kifayət qədər böyük təbəqəni əhatə edir. Biz bu sahəni sonsuz genişləndirə bilmərik", - S.Şərifov qeyd edib.

# Qarabağdakı sülhməramlılar bəyanat yaydı

***Rusiya sülhməramlı qoşunlarının Qarabağa gəlməsinin ikinci ildönümüdür.***



"Unikal" xəbər verir ki, bu barədə sülhməramlıların "Telegram" kanalında məlumat verilib.

Qeyd edək ki, onlar bunu yüksək sevinc hissi ilə qeyd edirlər.

"2020-ci il noyabrın 10-da Rusiya və Azərbaycan prezidentləri, eləcə də Ermənistanın Baş naziri tərəfindən imzalanmış üçtərəfli saziş əsasında yerləşdirilən Rusiya sülhməramlı qoşunlarının Dağlıq Qarabağda sülhməramlı tapşırıqlarını yerinə yetirməsindən iki il keçir... Rusiya sülhməramlılarının münaqişə zonasında olması vəziyyətin sabitləşməsini və atəşkəsin qorunmasını təmin etməklə yanaşı, regionda dinc həyatın bərpasına şərait yaradıb. Ayrı-ayrı insidentlər və pozuntular tərəflərin birgə səyi ilə yerindəcə həll edilir", - məlumatda deyilir.

*Ağarza Elçinoğlu*

# Alimpaşa Məmmədov Pentensiar Xidmətin təcridxanasına köçürüldü

***Gəncə Ağır Cinayətlər Məhkəməsində Şəmkir Rayon icra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədovun cinayət işi üzrə məhkəmə iclası başlayıb.***

"Unikal" report-a istinadən xəbər verir ki, hakim Nural Əliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmədə elan olunub ki, A.Məmmədovun barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilmədən saxlanılıb.

Bundan başqa, sabiq icra başçısının Dövlət Təhlükəsizliyi Xidmətinin təcridxanasından Pentensiar Xidmətin istintaq təcridxanasına köçürüldüyü məlum olub.

Məhkəmənin növbəti iclası noyabrın 24-nə təyin olunub.

Qeyd edək ki, A.Məmmədov ötən ilin aprel ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub.

Onun barəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə), 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə ittiham irəli sürülüb və məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Fransa Azərbaycana yeni səfir təyin etdi

***Fransa Azərbaycana yeni səfir təyin edib.***

"Unikal" Fransa mediasına istinadən xəbər verir ki, ölkə Prezidenti Emmanuel Makron bununla bağlı müvafiq sərəncam imzalayıb.

Sərəncama əsasən, Anne Boillon Fransanın ölkəmizdəki yeni səfiri təyin olunub.

# XİN-dən Atatürklə bağlı paylaşım

***Bu gün qardaş Türkiyə Cümhuriyyətinin qurucusu, Qazi Mustafa Kamal Atatürkün vəfatının 84-cü ildönümüdür.***

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) tviter hesabında yazılıb.

"Əziz xatirəsi qardaş xalqlarımızın yaddaşında əbədi yaşayan böyük dövlət xadimi, sərkərdə və siyasətçi Mustafa Kamal Atatürkü dərin hörmət ilə anırıq", - paylaşımda bildirilib.

# Bakıda azyaşlı qardaşlar siçan dərmanı içib öldü

***Bakıda iki azyaşlı qardaş bədbəxt hadisə nəticəsində ölüb.***

"Qafqazinfo" xəbər verir ki, 2 gün əvvəl Sabunçu rayonunun Ramana qəsəbəsində 5 və 3 yaşlı iki uşaq siçan dərmanından zəhərləniblər. Qardaşlar xəstəxanaya çatdırılsa da, vəfat ediblər.

Baş Prokurorluğun Mətbuat xidmətindən "Qafqazinfo"nun sorğusuna cavab olaraq bildirilib ki, faktla bağlı Sabunçu Rayon Prokurorluğunda araşdırma aparılır.

Manset.az-ın məlumatına görə isə həmin uşaqlar siçan dərmanını "Jelibon" bilərək yeyiblər və yerə yıxılıblar. Şahidlərin sözlərinə görə, ailənin iki uşaqdan başqa övladları olmayıb. Ev yiyəsi həmin dərmanı siçanları məhv etmək üçün istifadə edirmiş.

# “Sülh müqaviləsinin imzalanmasından qaçmaq üçün təxribatlara əl atırlar”

## Ziyafət Əsgərov: “Əgər bir daha əmin olsaq ki, Ermənistan qəti şəkildə sülh müqaviləsini imzalamaqdan imtina edir, danışıqlar onlar üçün imitasiyadır və təxribatları davam etdirirlər, layiqli cavablarını alacaqlar”

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Ziyafət Əsgərov ”Unikal”a müsahibə verib. O, dövlət büdcəsində hərbi xərclərin artırılmasının məqsədindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasından, İranın Azərbaycanı təhdid etməsindən, Rusiya sülhməramlılarının nə zaman Qarabağdan gedəcəyindən və digər məsələlərdən danışıb.***

***-Ziyafət müəllim, dövlət büdcəsində hərbi xərclərə ayrılacaq vəsait rekord həddə çatıb. Hərbi xərclər niyə artırılır və bu vəsaitlər daha çox hansı istiqamətdə xərclənəcək?***

-Gələn il üçün Azərbaycanın dövlət büdcəsində hərbi xərclərə ayrılacaq vəsaitin artırılması olduqca vacibdir. Hərbi xərclər Azərbaycan Silahlı Qüvvələrinin bütün sahələrini əhatə edəcək. Buraya şəxsi heyət, maddi-texniki təminat, yeni silah-sursatların alınması və s. daxildir. Burada ən müasir texnologiyalara əsaslanan yeni silahların alınmasından söhbət gedir. Bölgədə vəziyyət elədir ki, yeni silahların alınması vacibdir. Prezident İlham Əliyev həmişə bu məsələyə xüsusi diqqət yetirir. Hələ Ermənistanla sülh müqaviləsi imzalanmayıb, həmçinin, bəzi qonşularımızın özünü necə aparmalarını görürsünüz. Azərbaycan Ordusu günü-gündən möhkəmlənir. İki il bundan əvvəllə müqayisə etsək, indiki Azərbaycan Ordusu daha güclüdür və bunu hər kəs bilməlidir.

***-Sonuncu Soçi görüşündə Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması əsas müzakirə mövzusu oldu. Ermənistan tərəfindən sülh müqaviləsinin imzalanmasının uzadılmasında məqsəd nədir?***

-Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışı zamanı bu məsələyə ciddi münasibət bildirib. Azərbaycan tərəfi beynəlxalq hüquqa əsaslanan 5 prinsipi irəli sürüb. Ermənistan isə bunu qəbul edib. Dəfələrlə bu ölkənin baş naziri, xarici işlər naziri, hətta prezidenti səviyyəsində etiraf ediblər ki, təklif olunan prinsiplər Ermənistan üçün normaldır. Amma təəssüflər olsun ki, bu məsələni uzadırlar. Bu yaxınlarda Vaşinqtonda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri görüşdülər. Orada da müxtəlif yanaşmalar var. Ermənistan əvvəl özünü belə aparmırdı. Amma indi ritorikanı dəyişdikləri görünür. Yəni, danışıqlarda Ermənistan tərəfindən müəyyən qədər sərtləşmələr var. Halbuki əvvəl belə deyildi. İndi onları havadarları qızışdırır. Hər bir halda biz sülh müqaviləsinin tərəfdarıyıq. İstəyirik ki, regionda əmin-amanlıq, sabitlik, sülh, təhlükəsizlik olsun. Ümumiyyətlə, bu məsələ bitsin. Ermənistan nəyi gözləyir, nəyə arxayındırlar, nədən belə edirlər, onu gələcək göstərəcək.

***-Ermənistan tərəfinin havadarları tərəfindən qızışdırılmasını siz də qeyd etdiniz. Son günlər Ermənistan silahlı qüvvələri tərəfindən bir neçə istiqamətdə mövqelərimiz atəşə tutulur. Düşmənin atəşkəsi pozmaqda məqsədi nədir və bu halların tez-tez baş verməsi yenidən sərhəddə vəziyyəti gərginləşdirə bilərmi?***

-Onların bütün bu addımları sülh müqaviləsinin imzalanmasının uzadılmasına yönəldilib. Azərbaycan tərəfindən irəli sürülən 5 prinsip Ermənistan tərəfindən çox normal qəbul olunub. Son vaxtlar isə ritorikanı dəyişiblər. Qarabağda olan qanunsuz erməni silahlı birləşmələri tərəfindən, həmçinin, sərhəddə olan təxribatlar ondan xəbər verir ki, Ermənistan sülh müqaviləsinin imzalanmasında maraqlı deyil. Yenə də imitasiya etməyə başlayırlar. Necə ki, 30 ildə danışıqlar prosesini imitasiya edirdilər. Sonra sübut olundu ki, bunlar elə danışıqlar xətrinə danışığa gedirlər. Əslində, danışıqlarda maraqlı deyillər. Sülh müqaviləsinin imzalanmasından qaçmaq üçün belə təxribatlara əl atırlar. Bu təxribatların qarşısı alınır və bundan sonra da alınacaq. Əgər, bir daha əmin olsaq ki, Ermənistan qəti şəkildə sülh müqaviləsini imzalamaqdan imtina edir, danışıqlar onlar üçün imitasiyadır və təxribatları davam etdirirlər, layiqli cavablarını alacaqlar. Buna onların heç bir şübhələri olmasın.

***-Prezident İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışı zamanı qeyd etdi ki, Qarabağ bizim torpağımızdır. Rus sülhməramlıları orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir. Ermənistan tərəfindən isə bu müddətin artırılması ilə bağlı fikirlər var idi. Necə düşünürsüz, 2025-ci ildə rus sülhməramlıları Qarabağdan gedəcəklərmi?***

-2025-ci ilə 3 il var. Amma 2020-ci ilin 10 noyabr Bəyanatında göstərilib ki, onların müddəti 2025-ci ilə qədərdir. Hesab edirəm ki, bundan sonra o müddətin uzadılmasına gərək yoxdur. Bunun üçün zərurət görmürəm. Soçi danışıqlarından əvvəl Ermənistan Baş naziri Nikol Paşinyan belə bəyanat vermişdi ki, Rusiya sülhməramlılarının mandatının daha 10-15 il uzadılmasının tərəfdarıdır. Bu təklif rədd edilib. Sülhməramlıların orada qalma müddəti müvəqqətidir. Uzadılmasının da heç bir məntiqini görmürəm.

***-Bəzi qonşu ölkələrin davranışları ilə bağlı məsələyə toxundunuz. İran tərəfi sərhəddə hərbi təlimlər keçirdi. Bununla yanaşı, Azərbaycana qarşı təhdid dolu fikirlər səsləndirirlər. Onların bizə qarşı bu mövqeyi nə ilə bağlıdır?***

-İran 30 ildə Ermənistanla bir yerdə olub, dostluq edib, indi də bu dostluğu davam etdirir. Qafanda binası hazır olmayan konsulluq açdılar. Təbrizdə Ermənistanın konsulluğunun açılacağı ilə bağlı fikir səsləndiriblər. İran tərəfi deyəcək ki, bu bizim daxili işimizdir, istənilən dövlətlə münasibət qura bilərik. Amma onların verdikləri bəyanatlara baxaq. İranın nümayəndəsi gəlib Qafanda deyir ki, bura sizin təhlükəsizliyinizi müdafiə etmək üçün gəlmişik. Bu nə deməkdir? Siz Ermənistanı Azərbaycandan qoruyursuz? Azərbaycanın heç kimin ərazisində gözü yoxdur. Yalnız sülhün tərəfdarıyıq və sülh müqaviləsini imzalamağa hazırlaşırıq. Azərbaycana qarşı bu nə bəyanatdır verirsiz? Bu, əslində təhdiddir. Amma Azərbaycanla heç kim təhdid dilində danışa bilməz. Biz bütün regionda sülhün, ərazi bütövlüyünün, suverenliyin, sərhədlərin toxunulmazlığının tərəfdarıyıq. İranın bu cür davranışı heç cür qəbuledilən deyil. Təhdidlər heç kimə lazım deyil. Azərbaycanla təhdid dilində danışmağın vaxtı çoxdan keçib. İran da, Ermənsitan da bunu başa düşməlidir. Azərbaycan qalib dövlətdir, öz ərazisini düşmən işğalından azad edib. Qonşu ölkələr də bununla barışmalıdır. İran bundan sonra Ermənistanla birləşib Azərbaycana nə edəcək? Bu nə qonşuluq və müsəlmançılıqdır? Mehriban qonşuluq etmək istəyirlərsə, bunu əməldə etməlidirlər. Sözlə əməlin düz gəlməməsi, heç bir siyasətə, qonşuluğa sığan məsələ deyil.



***-Zəngəzur dəhlizinin açılması da əsas müzakirə mövzusudur. Ermənistan tərəfi 10 noyabr Bəyanatında bununla bağlı öhdəlik götürüb və onu yerinə yetirməlidirlər...***

-Tamamilə doğrudur. 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatın 9-cu maddəsində göstərilib ki, Naxçıvana nəqliyyat koridorunun açılması və onun təhlükəsizliyi birbaşa Ermənistanın öhdəliyidir. Qarabağda Ermənistanı birləşdirən Laçın koridoru işləsin, ermənilər sərbəst gəlib-getsinlər, amma Naxçıvana nəqliyyat koridoru olmasın? Nə üçün öhdəliyi yerinə yetirmirlər? Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir, bununla bağlı öz üzərinə öhdəlik götürüb. Ermənistan öhdəlik götürüb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında yol bağlantısı olsun. Hesab edirəm ki, Ermənistan bu öhdəliyi yerinə yetirməlidir. Əgər bu öhtəliyə əməl etmirlərsə, onda başqa nəticələr olacaq.

***Anar Kəlbiyev***

# Cahangir Əsgərovdan üzülən ümid...

## AZAL-ın absurd qiymət siyasətinə son qoyulacaqmı?



***Bu ilin iyulunda Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətlərində aviabiletin dəyəri 60 manat məbləğində müəyyən edilib. Rəsmilər bunu xidmət səviyyəsinin yüksəldilməsilə əsaslandırıblar.***

Sərnişinlər isə Bakı-Naxçıvan-Bakı təyyarələrinin nasazlığından, komfortsuzluğundan gileylənirlər. Hətta ötən günlərdə "Azərbaycan Hava Yolları" aviaşirkətinin Naxçıvan-Bakı reysi (J2-256) üzrə uçan təyyarəsinin göyərtəsində salonun hermetikliyinin pozulmasını göstərən sensorun işə düşməsi nəticəsində oksigen maskaları açılmışdı.

Məsələ ilə bağlı bir neçə gün öncə yerli KİV-ə danışan Milli Məclisin naxçıvanlı deputatı Fazil Mustafa bildirib ki, ola bilsin AZAL "xidmətin artırılması" açıqlaması ilə zarafat edib.

Deputat qeyd edib ki, əgər AZAL keyfiyyətin artırılmasının marağında olsaydı, biletin qiymətini ucuzlaşdırardı: "Yoxsa qiyməti kəllə-çarxa çıxarıblar, vətəndaşlar qan ağlayır. Keyfiyyət onsuz da yüksək olmalıdır. Keyfiyyətin olmaması ayrıca problemdir. Keyfiyyət lap pis olsun. Kimdir, AZAL-ın qəlbinə dəyən? AZAL istənilən şəkildə hava limanının, təyyarələrin istismarını həyata keçirə bilər".

Onun sözlərinə görə, Naxçıvana uçuş biletinin qiyməti həqiqətən böyük problemdir: "Heç olmasa, qiyməti aşağı salsınlar ki, insanlar sürünə-sürünə də olsa, 5-10 manat tapıb, xəstələrini, ya özlərini istədikləri yerə çatdırsınlar. Naxçıvana uçuş bileti yenə bahadır. İranla yolların çətin olması da yoxsul əhali üçün problem yaradacaq. Bunu düşünən yoxdur. Yenə də deyirəm, AZAL-ın qəlbinə toxunan yoxdur. İstənilən qurum vətəndaşları istədiyi şəkildə istismar edir".

Deputat sonda əhalinin faydasına olan müsbət bir dəyişikliyi AZAL-dan gözləmədiyini bildirib.

Əslində əksəriyyət elə millət vəkili kimi düşünür: AZAL "şefi" Cahangir Əsgərovun qiymətləri ucuzlaşdıracağına, keyfiyyəti isə yüksəldəcəyinə artıq çoxlarında ümid qalmayıb. Nə deputatların tənqidi, nə sadə vətəndaşların narazılığı, nə də ekspertlərin giley-güzarı Cahangir müəllimi absurd qiymət siyasətindən əl çədirməyə kifayət eləmir.

Hətta 2021-ci ilin martında bir sıra digər iri dövlət müəssisələrində olduğu kimi, "Azərbaycan Hava Yolları"nda da yaradılan Müşahidə Şurası da AZAL-dan məlum şikayətlərin azalmasına gətirib çıxarmayıb. Xatırladaq ki, həmin vaxt bir sıra iqtisadçı ekspertlər, millət vəkilləri mətbuata açıqlamalarında bildirirdilər ki, sözügedən Şura "Azərbaycan Hava Yolları"nda növbəti 6 ay ərzində praktik olaraq bütün istiqamətlər üzrə xarici şirkətlər cəlb edilməklə, diaqnostik qiymətləndirmələr və təhlillər aparılacaq. Bu mərhələ həmin şirkətlərin fəaliyyətlərindəki səmərəliliyi artırmaq, daha şəffaf, daha qənaətcil, fiskal idarəetmə siyasəti həyata keçirmək məqsədi daşıyacaq. "Ən böyük gözləntilər də odur ki, Müşahidə Şurası yaradıldıqdan sonra, postpandemiya dövründə biz həm "Azərbaycan Hava Yolları"nın təklif etdiyi xidmətlərin, həm də biletlərin qiymətlərinin optimallaşdırılmasını görəcəyik. Bu, turizmin inkişafı baxımından da çox vacibdir" - deyə həmin açıqlamalarda bildirilirdi.

Lakin Müşahidə Şurasının fəaliyyətə başlamasından təxminən artıq ilyarım keçib, ancaq biz AZAL-ın uçuş qiymətlərində hər hansı optimallaşma, ucuzlaşma hiss eləmirik. Maraqlıdır, təəccüblüdür, qəribədir, ən əsası isə müəmmalıdır: niyə? Ola bilərmi ki, Müşahidə Şurası bu QSC-nin rəhbəri Cahangir Əsgərovun anormal qiymət siyasətinə müdaxilə edə bilmir?!

Hər halda adamın ağlına başqa versiya gəlmir. Və belə görünür ki, AZAL-ın artıq "ümummilli problemə" çevrilən bahalı biletlərinin ucuzlaşmasının yeganə yolu Əsgərovla yolların ayrılmasından keçir. Bir sıra mütəxəssislər də Cahangir müəllimin "Azərbaycan Hava Yolları" QSC-nin rəhbəri olduğu müddətdə bu dövlət şirkətinin absurd qiymət siyasətinin dəyişməyəcəyi qənaətindədirlər.

Ona görə də hamımıza oturub gözləmək qalır: hazırda 72 yaşı olan Əsgərov nə vaxt tutduğu postdan uzaqlaşdırılar, 26 ildir işlədiyi vəzifədən kənarlaşdırılar, bəlkə, onda AZAL-ın uçuş biletləri də hər kəs üçün əlçatan, arzuedilən olar.

P.S. Onu da xatırladaq ki, Azərbaycan hökumətinin bu il mayın 31-də "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" yaydığı hesabata əsasən bilet qiymətlərinin hədsiz baha olmasına baxmayaraq, AZAL ötən ili maliyyə itkisi ilə başa vurub. Hesabatda bu dövlət şirkətinin 2021-ci ildə yaranan 34.8 milyon manatlıq dövlət zəmanəti borcunun Təminat Fondu tərəfindən ödənildiyi qeyd olunub.

Dövlət büdcəsindən subsidiya da alan AZAL pandemiya zamanı və ondan əvvəlki il də zərərlə işləyib. Şirkətin 2019 və 2020-ci illər üzrə açıqladığı maliyyə hesabatına əsasən şirkət həmin illəri müvafiq olaraq 78 milyon 770 min və 76 milyon 415 min manat xalis zərərlə başa vurub.

İndi belə çıxır ki, bahalı bilet qiymətlərinə baxmayaraq zərərlə işləyən və zərəri hər il daha da artan AZAL bunu vərdişə çevirib - vətəndaşı ziyana salmağı öz "iş prinsipinə" çevirib. Özü də nəinki cəmiyyətin, ekspertlərin, medianın, elə millət vəkillərinin də çoxsaylı narazılığına, etirazına, tənqidlərinə baxmayaraq!

***Sənan Mirzə***

# Həkimlərin əməkhaqlarının artırılması məsələsinə baxılacaq



***"İcbari tibbi sığorta üzrə bizim büdcəmiz artır". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Mədəniyyət komitələrinin birgə iclasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev deyib.***

O bildirib ki, bizə ən çox müraciət edilən məsələ əməkhaqqlarının artırılması ilə bağlı idi: "Bu əməkhaqları artırılmışdı. 2022-ci ildə əksər ixtisaslı həkimlərin əməkhaqları 1000 manat və 1000 manat üzərində müəyyən olunub. Əlavə olaraq da onlar bonuslar alırlar. Yenə də bu məsələyə baxılacaq. Gələcəkdə də bizim vəsaitlərimiz artırılsa, yenə əməkhaqlarının artırılması nəzərdə tutulacaq".

# Bu əməliyyatlar icbari tibbi sığortaya daxil ediləcək



***"2023-cü ildə icbari tibbi sığorta üzrə xidmətlər zərfində dəyişiklik edilməsi nəzərdə tutulur".***

"Unikal" xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev Milli Məclisdə 2023-cü ilin dövlət büdcəsinin müzakirəsi zamanı deyib.

Onun sözlərinə görə, növbəti il orqan köçürmələri, ürək və damar çatışmazlığı üzrə əməliyyatlar və digər əməliyyatların xidmətlərin zərfinə daxil edilməsi və həmin əməliyyatlar üzrə say limitinin artırılması nəzərdə tutulur.

"Yeni xidmətlər zərfi aidiyyatı qurumlarla razılaşdırılıb və gözləyiri ki, təsdiqlənsin. Hazırda 92 özəl tibb müəssisəsi ilə müqavilə imzalamışıq və xəstələri həmin özəl tibb müəssisələrinə göndəririk".

# Kamran Əliyev Sumqayıt və Qubadlı sakinlərini qəbul edəcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il noyabrın 22-də saat 10:00-da Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri və Qubadlı rayon sakinlərinin qəbulunu keçirəcək.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan məlumat verilib. Məlumata görə, vətəndaşların qəbulla bağlı qeydiyyatı və Sumqayıt şəhərinə gəlmələrinin təşkili müvafiq rayon prokuroru tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Müdafiə Nazirliyinin mayoru ürəktutmasından vəfat etdi

***Müdafiə Nazirliyinin zabiti ürəktutmasından vəfat edib.***

"Unikal" xəbər verir ki, bu barədə onun hərbçi dostu məlumat verib. Bildirilir ki, məzuniyyətdə olan 38 yaşlı Cavan Baxışov mayor idi. O, ikinci Fəxri Xiyabanda dəfn olunacaq.

Hərbçi Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib.




## Aksiyaların keçirilməsinə niyə icazə verilmir? - DİN-dən cavab

***Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin bölmə rəisi, polis baş leytenantı Zeyni Hüseynov müxtəlif partiyalar tərəfindən aksiyaların keçirilməsinə icazə ilə suallara aydınlıq gətirib.***

"Unikal" DİN rəsmisinin cavablarını təqdim edir:

- Məlum olduğu kimi, bir qrup şəxs noyabrın 11-də aksiya keçirmək üçün Bakı şəhər İcra Hakimiyyətinə müraciət edib və qurum aksiyanı məqsədəmüvafiq hesab etməyib. Lakin təşkilatçılar aksiyanı keçirməkdə israr edirlər. Buna imkan veriləcəkmi?

- Əgər məqsədəmüvafiq hesab olunmursa, deməli aksiyanın keçirilməsinə razılıq verilməyib. Ona görə də şəhər İcra Hakimiyyəti ilə razılışdırılmamış aksiyaya cəhd olarsa, qarşısı alınacaq.

- Bir neçə il əvvəl belə aksiyanın keçirilməsinə icazə verilmişdi. Bəs, indi niyə icazə verilmir?

- Bəli, o vaxt icazə verildi, lakin aksiyanın təşkilatçıları öz üzərilərinə düşən şərtlərə əməl etmədilər. Onlar qəsdən ictimai asayişin pozulmasına, insanların, nəqliyyatın hərəkətinə mane olmağa cəhd etdilər və qarşısı da alındı. Bunu nəzərə alaraq, bu dəfə həmin ərazidə aksiya keçirilməsinə razılıq verilmədi.

- Belə fikir də səsləndirilir ki, əvvəlki aksiyalarda iştirakçıları inzibati qaydada həbs edirdilər, lakin son dövrlərdə aksiya iştirakçılarını həbs etmirlər. Bu nə ilə əlaqədardır?

- Hətta qanunsuz aksiya zamanı iştirakçılar polisin tələbinə tabe olursa, ona qarşı hər hansı bir müqavimətə cəhd göstərmirsə, belə olan halda polis inzibati cəza tətbiq etmir, yalnız iştirakçılar ərazidən kənarlaşdırılırlar. Əgər aksiya zamanı iştirakçılardan hansısa polisin tələbinə tabe olmayıb ona qarşı müqavimətə cəhd göstərərsə, belə şəxslər barəsində qanunamüvafiq tədbirlər görüləcək. Yeri gəlmişkən, əgər noyabrın 11-də həmin şəxslər razılaşdırılmamış aksiyanın keçirilməsinə cəhd edərlərsə, qarşısı alınacaq və bu zaman baş verə biləcək hər hansı qanunazidd əməlin məsuliyyəti də təşkilatçıların üzərinə düşəcək.

## Bu sahibkarlara 10 il güzəşt ediləcək

***"İşğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınacaq sahibkarlıq subyektləri vergi güzəştlərindən yararlana biləcəklər".***

"Unikal" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayeva Milli Məclisdə 2023-cü ilin dövlət büdcəsinin müzakirəsi zaman deyib.

O bildirib ki, işğaldan azad edilmiş ərazilərdə uçota alınacaq vergi ödəyiciləri, əmlak, torpaq vergilərindən 10 il müddətinə güzəştlər əldə ediləcək.

"Bura satışdankənar gəlirlər də daxildir. İstehsal sahələri üzrə xammalın idxalı da 10 il müddətinə vergilərdən azad edilir. Bundan başqa, işğaldan azad edilmiş ərazilərin turizm potensialı nəzərə alınaraq əmlak, torpaq vergilərindən azad olunmaqla yanaşı, ƏDV-nin geri qaytarılması üzrə faiz dərəcəsi 30% müəyyən olunub".

# "Toy oliqarxları" yenə öz ampluasında

## Şadlıq evlərində bu dəfə 12 faizlik bahalaşma! - Bəs xidmət və keyfiyyət nə vaxt yüksələcək?

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Bakıda fəaliyyət göstərən şadlıq saraylarında menyuların qiyməti bahalaşıb. Bu barədə İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) məlumatında qeyd edilirdi.***

Xüsusən 40 manatadək olan menyularda qiymət nə az, nə çox, düz 12 faiz artıb.

Xatırladaq ki, bu ilin iyun ayında CESD-dən verilən məlumata görə, menyuların qiymətinin orta hesabla 5 faiz bahalaşdığı ortaya çıxmışdı. Həmin vaxt bildirilirdi ki, 40 manatadək olan menyularda qiymət artımları 3 faiz, 40-80 manat arasındakı menyularda 5 faiz, 80 manatdan yüksək olan menyularda isə artım 7 faiz olub. Eyni zamanda, monitorinqlər xidmət keyfiyyətinin azalmasını müşahidə eləmişdi. Belə ki, ötən müddətdə xidmətçilərin sayında müşahidə edilən azalma xidmət keyfiyyətinin aşağı düşməsinə səbəb olmuşdu.

Rəqəmlərdən o da aydın olurdu ki, ölkədə toyların sayı da artır.

Əlbəttə, məntiqlə bu rəqabət ortamı deməkdir və qiymətlərdə azalma müşayiət olunmalıdır.

Ancaq həm iyunda, həm də noyabrda CESD-in statistikasından belə aydınlaşır ki, ölkədə toylarla bərabər qiymətlər də artıb.

Bir az da dəqiqləşdirsək, belə çıxır, "toy oliqarxlarımız", necə deyərlər, "bir güllə ilə iki quş vurublar". Bu da azmış kimi, xidmət keyifiyyətini azaldıblar. Yəni həm toyların çoxluğundan, həm qiymətlərin artımından, həm də xidmətçi sayını azaltmaqdan qazanıblar.

İtirən isə toy edən vətəndaşlar olublar - əksəriyyəti qeyri-rəsmi şəkildə məmurlara, ya da onların himayə etdiyi iş adamlarına məxsus olan şadlıq evlərinə daha böyük məbləğdə pul ödəyiblər, əvəzində daha aşağı xidmət alıblar. İtirənlər siyahısına yalnız toy sahibi yox, onun qonağı olan vətəndaşlar da daxildir. Yazıldıqları yüksək nəmərin əvəzində aşağı xidmətlə qarşılaşıblar.

Hələ bu harasıdır? "Unikal"ın aylar öncə mövzu ilə bağlı araşdırmasında adının çəkilməsini istəməyən bir şadlıq sarayı administratorunun sözlərinə görə, bahalaşan qiymətlər fonunda aşağı düşən yalnız xidmətin deyil, həm də müştərilərə təklif olunan qidaların keyfiyyətidir. Onun sözlərinə görə, hazırda toylarda verilən mövsümi meyvələr və tərəvəzlər belə müştərilərdə mütəmadi narazılıq doğurur. Çünki həmin meyvə-tərəvəzlər alınarkən şadlıq evləri onların keyfiyyətinə deyil, qiymətinə üstünlük verirlər. "Ucuz ətin isə, əlbəttə ki, şorbası olmaz" - administrator əlavə edib.

Ət demişkən... Toylarda verilən ət yeməklərinin, xüsusilə, kababların həcmi də azaldılıb. Normalda həmin yeməklər toyun gedişində qonaqların istəyi ilə yenidən verilməlidir, lakin bu, son zamanlar, demək olar, qeyri-mümkündür. "Artıq "dobavka" söhbəti aradan qalxıb, həm yeməklərin həcmi azalıb, həm də onu təkrarlamaq çətin məsələdir. Buna görə toyda iştirak edən qonaqlarla şadlıq evi administratorları, xüsusən də administratorlar arasında mübahisələr getdikcə adiləşir" deyə müsahibimiz bildirmişdi.

O bizimlə söhbətində bu fikirlə də qeyd-şərtsiz razılaşmışdı ki, hazırda toylar vətəndaşların maraqlarına ümumiyyətlə cavab vermir. "Onsuz da əvvəlki illərdə də toylardan əsas qazanclı çıxan şadlıq evləri idi. İndi isə vəziyyət toy sahiblərinin tamamilə ziyanınadır. Ancaq şadlıq evlərinin durumunu da nəzərə almaq lazımdır. Pandemiyaya görə toylar ləğv edildi, şadlıq evi sahibləri xeyli ziyana düşdülər, uzun müddət işləmədilər. Nəticədə şadlıq evlərini saxlamaq üçün ciblərindən xərcləməli oldular. Digər tərəfdən, bütün sahələrdə bahalaşma var. Ona görə də hç kimi qınamalı deyil" - həmsöhbətimiz əlavə etmişdi.



Analoji situasiya bu gün də davam edir.

Hərçənd, heç nə "toy oliqarxlarına" həm xidmətin, həm qidaların, ərzaqların keyfiyyətini aşağı salıb əvəzində toy qiymətlərini bu qədər yüksəltmək haqqı vermir!

Yeri gəlmişkən, vaxtilə vurğuladığımız kimi, ən absurd vəziyyət az qala eyni menyular arasındakı kəskin qiymət fərqləridir. Bu fərq Bakı ilə regionlar arasında daha aydın görünür. Məsələn, istənilən əyalət rayonunun şadlıq sarayındakı menyular xüsusilə keyfiyyət baxımından paytaxtın şadlıq saraylarından xeyli yüksəkdir. Əvəzində isə qiymət baxımından Bakının şadlıq sarayları "əl yandırır". Əlbəttə, paytaxtla bölgələrdəki şadlıq evlərinin icarə haqları və .s. baxımından da birincilərin əleyhinə fərq var, ancaq heç nə "toy oliqarxlarına" müştərilərin sağlamlığını və məmnuniyyətini arxa plana atıb (həm də həmişəki kimi!) yalnız və yalnız öz maraqlarını düşünmək üçün əsas vermir.

"Toy oliqarxları" bu sadə sualı obyektiv, inandırıcı şəkildə cavablandırmağa borcludurlar - necə olur ki, şadlıq evlərində qiymətlər hər ay, özü də kifayət qədər yüksək rəqəmlərlə bahalaşır, ancaq nə müştəriyə xidmət, nə də qida keyfiyyəti baxımından heç bir yüksəliş yoxdur?

Onların həmin suala cavabı yoxdursa, barı aidiyyatı dövlət qurumları sözügedən ziddiyyətə aydınlıq gətirməlidirlər.

***Toğrul Əliyev***

# Azərbaycanda ilin sonunadək vəzifəsini itirə biləcək icra başçıları

## Ölkənin "ən stajlı" rayon rəhbərlərini Yeni il ərəfəsində "sürpriz" gözləyir?

***Azərbaycanda bu ilin sonunadək bəzi rayonların icra hakimiyyətlərinin rəhbərliyində dəyişiklik gözlənilir. Vəzifəsini itirməsi ehtimal olunan icra başçıları arasında uzun müddətdir həmin postu tutanlarla yanaşı, yenilərin də olması gözlənilir.***

"Yeni il" sürprizi ilə üzləşməsi gözlənilən rayon rəhbərlərindən biri Vidadi İsayevdir. Bərdə Rayon İcra Hakimiyyətinin başçısı olan İsayev artıq 17 ildir ki, icra başçısıdır. Bu müddət ərzində 2 rayona - Tərtər (2005-2011) və Bərdəyə (2011-ci ildən indiyə qədər) rəhbərlik edən İsayev yazılı və elektron mediada, eləcə də sosial şəbəkələrdə barəsində ən çox şikayətə rast gəlinən rayon rəhbərlərindəndir.



İsayevin vəzifəsindən vidalaşmasında əsas faktoru son illərdə Hesablama Palatasının Bərdə rayonunda apardığı yoxlamalar zamanı çoxsaylı nöqsanların aşkarlanması təşkil edir. Belə ki, hələ 2019-cu ildə Palatanın həyata keçirdiyi nəzarət tədbirləri nəticəsində nöqsan aşkar olunan icra hakimiyyətlərini və onların yol verdikləri nöqsanların mahiyyətini açıqlamışdı. Qurumun hesabatına əsasən, bunlar Gədəbəy, Bərdə, Balakən və Ağstafa rayon icra hakimiyyətləri idi. Məlum olmuşdu ki, Bərdə RİH büdcə qanunvericiliyini altı dəfə pozub. Əsaslı vəsait qoyuluşlar üzrə Bərdədə dörd nöqsan, dövlət satınalmaları ilə bağlı isə altı nöqsan qeydə alınmışdı.

Bundan başqa, Bərdə rayon İcra Hakimiyyətində vergi və gömrük qanunvericiliyinin pozulması üzrə iki, mühasibat uçotu və hesabatlılıqla bağlı altı nöqsan aşkarlanıb.

Maraqlıdır ki, həmin hesabatda adları çəkilən rayonlardan ikisinin rəhbərliyi sonradan dəyişdirilib. Məsələn, 2021-ci ildə İbrahim Mustafayev 2018-ci ildən bəri tutduğu Gədəbəy Rayon İcra Hakimiyyətinin rəhbəri postundan azad edildi. Yaxud Ağstafanın icra başçısı Məhərrəm Quliyev də 2019-cu ildə postundan kənarlaşdırılıb. Bununla belə, Bərdə ilə yanaşı Tərtər və Balakən rayonlarının rəhbərləri öz postlarında qalmağı bacardılar. Lakin onların da adı mediada vəzifələrindən azad edilməsi yüksək ehtimal kimi qiymətləndirilən rayon rəhbərləri olaraq hallanır.

Mətbuatda, sosial şəbəkələrdə Bərdə Rayon İcra Hakimiyyətinin fəaliyyətindən narazılıqların isə sayı-hesabı yoxdur. İnternet üzərindən kiçik bir axtarış aparmaq kifayətdir ki, V.İsayev və komandasının fəaliyyəti ilə bağlı çoxsaylı şikayətlərlə qarşılaşasan. Bu şikayətlərdə rayon rəhbərliyinin süründürməçiliyə yol verdiyi, sahibkarları incitdiyi, dövlət büdcəsindən rayona ayrılan vəsaitləri təyinatı üzrə xərcləmədiyi və s. barədə iddialara, faktlara rast gəlinir.

O da maraqlıdır ki, V.İsayev haqqında səsləndirilən ittihamlarla bağlı münasibət bildirməyə lüzum görməyən icra başçılarındandır.

Yeri gəlmişkən, 2020-ci ildə də adıçəkilən icra başçısının işdən kənarlaşdırıldığı, hətta bu barədə qərarın yaxın saatlarda açıqlanacağı ilə bağlı ölkənin bir sıra tanınmış media orqanları xəbər yaymışdılar, lakin həmin xəbər təsdiqini tapmamışdı.

Azərbaycanda yaxın vaxtlarda tutduğu postdan azad edilə biləcək rayon rəhbərlərindən biri də Zərdab Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Mərdan Camalovdur. İddia edilir ki, rayonda Mərdan müəllimin yaxın vaxtlarda vəzifəsindən uzaqlaşdırılacağına dair məlumatlar bir müddətdir yayılıb.

Qeyd edək ki, hələ ötən il sözügedən RİH-də hüquq-mühafizə orqanlarının əməliyyat keçirməsinə dair iddialar ortaya atılmışdı. Lakin məsələ ilə bağlı açıqlama verən Camalov bunu yalanlamışdı. Bununla belə, o, Memarlıq və Tikinti şöbəsinin müdiri Sahid Abuseyid oğlu Əhmədovdan izahat alındığını və onun həbs edilmədiyini bildirmişdi: "Nəsə lazım olub deyə, onu çağırmışdılar. Hazırda memar da, mən də öz yerimdəyəm".

Göründüyü kimi, həmin vaxt belə iddiaların ortaya çıxması üçün əsaslar olub. Yeni Zərdabın yerli məmurları xeyli "həyəcanlı" anlar yaşayıblar. Üstəlik, bu baş verənlər rayonda kimsəni təəccübləndirməmişdi. Çünki Zərdab yerli əhalinin rayon İcra Hakimiyyətindən, başda icra başçısının özü olmaqla ayrı-ayrı vəzifəli şəxslərdən ən çox şikayətlərin edildiyi bölgələrdəndir.

Xatırladaq ki, nəhəng biznesə və gözqamaşdırıcı sərvətə sahib olduğu deyilən 64 yaşlı M.Camalov 2005-2019-cu illərdə isə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb. Bundan sonra, 2019-cu ilin noyabrında Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib. Yəni o bu postda iki ildən bir qədər artıqdır ki, çalışır. Lakin yuxarıda da vurğuladığımız kimi, yerli əhali arasında icra başçısının ona göstərilən etimadı doğrultmadığı fikri geniş yayılıb. Yuxarı dairələrin də zərdablıların rayon rəhbərliyinin fəaliyyətindən ciddi narazılıq etdiyi barədə məlumatlı olduğunu düşünən sakinlər onun indiki kreslosunda çox otura bilməyəcəyi qənaətindədirlər.

Azərbaycanın ən stajlı icra başçılarından biri olan Adil Məmmədovun da adı vəzifəsindən kənarlaşdırılacağı iddia edilən rayon rəhbərləri sırasında göstərilir. Hazırda Qobustan rayon İcra Hakimiyyətinin başçısı olan Məmmədov indiyədək bir neçə rayona rəhbərlik edib. Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən 03.09.1994-cü ildən 25.08.2002-ci ilədək Oğuz rayonu İcra Hakimiyyətinin başçısı işləyən Adil müəllim sonralar Qəbələ (25.08.2002-ci il - 26.03.2004-cü il) və Biləsuvar (26.03.2004-cü il - 26.04.2011-ci il) rayonlarının rəhbəri olub.

O, 2011-ci ilin aprelindən isə Qobustan rayonu İcra Hakimiyyətinin başçısıdır.

Qeyd edək ki, V.İsayev və M.Camalovdan fərqli olaraq A.Məmmədovun adına mətbuatda nadir hallarda rast gəlinir. Belə ki, KİV-də Qobustanın icra başçısının fəaliyyəti ilə bağlı neqativ məzmunlu xəbərlərə, demək olar, rastlanmır, cəmiyyətdə də onun barəsində mənfi rəy yoxdur. Qeyd edilir ki, 28 ildən çoxdur müxtəlif rayonlarda icra başçısı işləyən A.Məmmədov 70 yaşı haqladığı, bir növ, təqaüd yaşına çoxdan çatdığı üçün postu ilə vidalaşa bilər.

Yazının əvvəlində vurğulamışdıq ki, icra başçısı postunda yeni olan bəzi şəxslərin də qarşıdakı aylarda əvəzlənməsinə dair iddialar var. Belə rayon rəhbərləri barədə başqa bir yazıda bəhs edəcəyik.

Səslənən iddiaların gerçəkləşib-gerçəkləşməyəcəyini isə, şübhəsiz ki, zaman göstərəcək...

***Toğrul Əliyev***



## "Uşaqpulu niyə verilmir?" - Sabir Rüstəmxanlı

***"Biz ailənin tək uşağını müharibəyə aparırıq. Amma uşaqpulu verilmir".***

"Unikal" xəbər verir ki, bunu deputat Sabir Rüstəmxanlı Milli Məclisin İctimai birliklər və dini qurumlar, Mədəniyyət, Elm və təhsil, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri komitələrinin birgə iclasında deyib.

"Büdcəmizdən niyə ailələrə maliyyə ayrılmır, dövlət niyə buna pul ayırmır? Sovet dönəmində ailələrdə axtarış olunurdu ki, təkuşaqlı ailədən müharibəyə aparmasınlar. Amma indi bizdə fərqlidir. Tək uşağı cəbhəyə aparırıq, amma böyüdülməsinə pul vermirik, niyə buna biganə yanaşırıq. Qonşu ölkələrdə də belə nümunə var ki, uşaqpulu verilir. Götürək Rusiyanı, onlar hər doğulan uşağa pul verirlər, bizdə niyə olmasın? Azərbaycanın büdcəsi buna çatır axı", - deyə deputat parlamentdə məsələ qaldırıb.

## Ceyhun Bayramov Atatürklə bağlı paylaşım etdi

***"Bu gün Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" deyən qardaş Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün vəfatından 84 il ötür".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov tviterdə yazıb.

"Türk dünyasının böyük oğlu Atatürkün əziz xatirəsini dərin hörmət və ehtiramla anırıq", - o bildirib.

## Bakıda orta aylıq əməkhaqqı min manatı keçib

***Bu ilin yanvar-avqust aylarında Bakıda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 1 068,7 manat təşkil edib.***

Bu barədə "Unikal"a Bakı şəhər Statistika İdarəsindən məlumat verilib.

Bildirilir ki, bu, 2021-ci ilin müvafiq dövrünə nisbətən 13,3 % artıb.

Xatırladaq ki, bu ilin yanvar-avqust aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilin müvafiq dövrünə nisbətən 14,3 % artaraq 829 manat təşkil edib. Əməkhaqqı neft-qaz sektorunda 3 485,5 manat, qeyri neft-qaz sektorunda 778,1 manat təşkil edib. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 780,1 manat, özəl müəssisələrdə isə 884,5 manat olub.



# Gələn il maaşlar nə qədər artacaq?

***Sentyabr ayından başlayaraq 2023-cü ildə əməkhaqlarının artımı ilə bağlı müzakirələr getməkdədir. Buna səbəb Maliyyə Nazirliyinin gələn ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlaması olub.***

Sənəddə 2023-cü ildə xərclər üzrə siyasətin əsas istiqamətləri sırasında əməyin ödənişi ilə bağlı islahatların davam etdirilməsi də yer alıb. Artıq rəsmi şəxslər və ictimaiyyət nümayəndələri arasında həmin ildə əməkhaqlarının nə qədər artırılacağı ilə bağlı gözləntilərini açıqlayanlar da var.

Əvvəlcə ondan başlamalıyıq ki, bu ilin əvvəlindən ölkədə növbəti sosial paketin icrasına başlanılıb. Bu istiqamətdə görülən tədbirlərdən biri də əməkhaqlarının artırılmasıdır. Belə ki, ilk növbədə, minimum aylıq əməkhaqqının məbləği artırılaraq 250 manatdan 300 manata çatdırılıb. Minimum əməkhaqqının artımı vahid tarif cədvəlinin bütün pillələri üzrə artımlara - orta hesabla 20 faiz artıma imkan verib. Minimum əməkhaqqı artımı dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min nəfər olmaqla, ümumən 800 min işçini əhatə edib. Həmçinin, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanların, o cümlədən ümumitəhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqları orta hesabla 20 faiz artırılıb.

Qeyd etmək lazımdır ki, bu sosial paket inflyasiyanın əhalinin gəlirlərini üstələməsinin və bu prosesin davam etməsinin qarşısını almağa hesablanmışdı. Belə ki, 2021-ci il üzrə inflyasiya 6,7 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 8,1 faiz olmuşdu. İnflyasiyanın növbəti ildə ikirəqəmli olacağını təxmin etmək elə də çətin deyildi.

Hərçənd ki, bu dövrdə (2020-ci illə müqayisədə 2021-ci ildə) əhalinin gəlirləri nominal ifadədə 2,6 faiz, o cümlədən, orta aylıq əməkhaqları 3,4 faiz artmışdı. Bütün bunlar əməkhaqlarının artımına zəmin yaratmışdı.

Cari ildə isə vəziyyət bir qədər fərqlidir. 2022-ci ilin yanvar-sentyabr aylarında inflyasiya 13,4 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 19,3 faiz olub. Bunun fonunda eyni dövrdə əhalinin gəlirləri 20,2 faiz artıb. Orta aylıq əməkhaqqı isə (2022-ci ilin yanvar-avqust aylarında 2021-ci ilin müvafiq dövrünə nisbətən) 14,3 faiz artıb.

Bununla belə, 2023-cü ildə dövlət büdcəsində sosialyönümlü xərclərin, o cümlədən əməyin ödənilməsi xərclərinin artacağı gözlənilir. 2023-cü ilin dövlət büdcəsində əməyin ödənilməsi üzrə xərclərin 8 milyard 479,7 milyon manat olacağı proqnozlaşdırılır ki, bu da cari ilin müvafiq göstəricisi ilə müqayisədə 420,8 milyon manat və ya 5,2 faiz çoxdur. Cari il üzrə isə əməyin ödənişi xərclərinin 8 milyard 59 milyon manat olacağı gözlənilir ki, bu da 2021-ci ilə nisbətən 1 milyard 563,9 milyon manat və ya 24,1 faiz yüksəkdir. Başqa sözlə, 2023-cü ildə dövlət büdcəsində əməyin ödənişinin artımına yönəldiləcək vəsaitin cari illə müqayisədə 3,7 dəfə az olacağı gözlənilir.

Hesablama Palatasının Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il üçün büdcə layihəsinə rəyində isə bildirilib ki, növbəti ildə orta aylıq əmək haqqının artımı 7,1 faiz səviyyəsində nəzərdə tutulub. Bu, cari il üçün gözlənilən analoji göstəricidən təxminən 2 dəfə az olmaqla ölkə üzrə orta aylıq əmək haqqının artımını göstərir.

Orta aylıq əmək haqqının artımına iqtisadiyyatın "kölgədən çıxarılması" tədbirləri də təsir edir. Belə ki, özəl sektorda əməkhaqlarının "ağardılması" orta aylıq əməkhaqqı göstəricisinin artmasına gətirib çıxarır.

Rəsmi göstəricilərin təhlili onu deməyə əsas verir ki, 2023-cü ildə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda əməkhaqlarının artımı gözlənilsə də bu, cari ildəki səviyyədə olmayacaq. Növbəti il üçün inflyasiya göstəricisinin 6,9 faiz olacağının proqnozlaşdırıldığını və artımın inflyasiya təzyiqinə əsaslandığını nəzərə alanda əməkhaqlarının müəyyən sahələr üzrə 10 faizə qədər artacağını təxmin etmək olar.

# Azərbaycandan xaricə axan milyonlarla manatda məmur izləri...

## Bəzi vəzifəli şəxslərin səriştəsizliyi ölkəmizə baha başa gəlir - İlginc təfərrüatlar!

***Gürcüstan statistika orqanının məlumatına əsasən, bu ilin doqquz ayı ərzində bu ölkədən 16,9 milyon dollar dəyərində qoyun ixrac edilib ki, bunun yarıya qədəri - təxminən 8 milyon dollarlığı Azərbaycana satılıb. "Musavat.com" xəbər verib ki, Gürcüstan Qoyunçular Assosiasiyasının rəhbəri Beka Qoqaşvilinin sözlərinə görə, yerli fermerlər heyvanların qiymətini aşağı salıblar ki, (240-270 lariyə- 147-165 manat) bu da son həftələrdə ixracın xeyli artmasına səbəb olub.***



Statistika onu da göstərir ki, indiki mərhələdə təkcə Gürcüstandan deyil, qonşu Dağıstandan da qoyun alan Azərbaycan ətə olan tələbatını təkcə yerli istehsal hesabına ödəyə bilmir. Ölkəmizin qoyunçuluqla məşhur olduğunu nəzərə alsaq, statistika ölkəmizdə bu təsərrüfatların sayının ildənilə azaldığını göstərir. O da bildirilib ki, rəsmi statistika 2022-ci il oktyabrın 1-i vəziyyətinə Azərbaycan üzrə 7 milyon 928,4 min baş qoyun və keçi qeydə alıb. Ötən ilin eyni dövründə qoyun-keçi sayı 8 milyon 197,3 min baş olmuşdu. Bu isə baş sayının 3,3 faiz azalması deməkdir. Ölkədə qoyun sayının azalması diri qoyun idxalının artımı ilə müşayiət olunur. Bu ilin yanvar-avqustunda Azərbaycana 6 milyon 969,1 min dollar dəyərində 73 193 baş diri qoyun idxal olunub. Bunun 58 915 başı (5 milyon 64,19 min dollar) Gürcüstandan, 12 153 başı Rusiyadan (975,63 min dollar) 2037 başı Türkiyədən (869,14 min dollar), 88 başı Bolqarıstandan (60,2 min dollar) gətirilib. Bu ilin 8 ayında qoyun idxalı say etibarilə ötən ilin eyni dövrünə nisbətən 1,6 faiz çox olub. Ötən il bir qoyun orta hesabla 92 dollara, bu il 95,2 dollara idxal olunub. Bu il Rusiyadan idxal olunan 1 qoyuna 80,3 dollar, Gürcüstandan 86 dollar, Türkiyədən 426,7 dollar, Bolqarıstandan 684 dollar ödənilib. Həmçinin qeyd olunur ki, qoyunçuluq təsərrüfatları yaylaq və qışlaq çatışmazlığı ilə üzləşərək heyvan sayını ixtisar etməyə məcbur olurlar. Az sayda iri təsərrüfatlar var ki, məhsuldar qoyun cinslərinin idxalını sürətləndirməklə baş sayının azalmasından dolayı yaranan itkilərini kompensasiya etməyə çalışırlar. Lakin hələlik bu cəhdlər ölkə üzrə ümumi istehsala ciddi təsir edəcək həddə çatmayıb. Buna görə də tələbatın artması fonunda baş sayının azalması idxal hesabına kompensasiya olunur.

Qoyun və keçi idxalı isə hər il külli miqdarda vəsaitin ölkədən çıxması ilə nəticələnir.

Onu da deyək ki, bir sıra yerli məmurların səriştəsizliyi, bəzi hallarda özbaşınalığı ucbatından Azərbaycanda örüş sahələrinin xeyli azalması da ölkədə qoyunçuluğun zəifləməsində əsas faktorlardan biri hesab edilir. Ötən saylarımızdan birində də vurğuladığımız kimi, bir çox məmurlar, xüsusilə də bu sahəyə məsul qurumların və yerli icra hakimiyyətlərinin rəhbərləri rayonlarda əsas biçənək, otlaq ərazilərini, qışlaqların yerləşdiyi sahələri ucdantutma əkin sahələrinə çevirirlər. Halbuki dövlət başçısının çıxışlarında aqrar istehsalda yüksəlişə ekstensiv - əkin sahələrinin genişləndirilməsi deyil, intensiv - yəni məhsuldarlığı artırmaq yolu ilə nail olunmasının vacibliyi dəfələrlə vurğulanıb. Eyni zamanda şoranlaşmış, yaxud bataqlığa çevrilmiş ərazilərin əkinə yararlı vəziyyətə gətirilməsinin vacibliyi qeyd olunub. Lakin xüsusilə yerli məmurlar bu çağırışları görməzdən gələrək, bütün gücü əkin sahələrinin genişləndirilməsinin heyvandarlığı sıxışdırmaq bahasına başa gəlməsinə yönəldiblər. Heyvandarlıqla məşğul olan fermerlər xeyli vaxtdır bununla bağlı etirazlarını dilə gətirirlər, lakin təəssüf ki, bu etirazlar ciddi nəticə verməyib.

Digər tərəfdən, heyvandarlıq üçün əlverişli rayonlarda örüş sahələri böyük ölçüdə yerli məmurların nəzarətinə keçib. Əhalinin mal-qara hesabına dolandığı elə rayonlar var ki, orada örüşləri hansısa vəzifəli şəxs qamarlayıb, özləri üçün müxtəlif təsərrüfatlar qurublar. Belə sahələrin fərqli təyinatı, kartofdan tutmuş taxılacan bir çox məhsulların becərilməsi üçün istifadə olunduğunun çoxsaylı örnəkləri var. Nəticədə sadə vətəndaşların heyvandarlıqla məşğul olmaq imkanları zəifləyir.

Bu da ona gətirib çıxarır ki, həm ölkəyə istər iri, istərsə də kiçik baş heyvan, həm də ət idxalını artır. Həmin artım isə milyonlarla manat vəsaitin Azərbaycandan kənara "axması" deməkdir. Bəs bunun qarşısını necə almaq olar? İnanaq ki, bu suala aidiyyatı dövlət qurumlarının rəsmiləri tezliklə cavab tapacaqlar...

***Murad***

# Nazirin vətəndaş qəbulunun vaxtı dəyişdi

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin 11 noyabr 2022-ci il tarixində Göygöl şəhərində Samux, Daşkəsən, Göygöl, Xocalı, Şəmkir, Gədəbəy, Kəlbəcər rayonlarının, həmçinin Gəncə və Naftalan şəhərlərinin sakinləri ilə keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişib.***



"Unikal" xəbər verir ki, Rəşad Nəbiyev vətəndaşları Göygöl şəhərində yerləşən Heydər Əliyev Mərkəzində (ünvan: Göygöl şəhəri, Hummel küçəsi 2) 22 noyabr 2022-ci il tarixində saat 10:00-da qəbul edəcək.

## 5.3.7 İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İsti ocaqlarına geri qayıdan ağalılar

## Namil Orucov: “Dünyada öz torpağına qovuşmaqdan gözəl hiss ola bilməz”



***Azərbaycan xalqı zəfərin ikinci ildönümünü qeyd edir. 44 günlük müharibədə qələbə qazanan Azərbaycan işğaldan azad etdiyi torpaqlarda böyük quruculuq işlərinə başlayıb. 28 il doğma torpaqlarından didərgin düşən sakinlər “Böyük Qayıdış”ın sevincini yaşayırlar.***

Bu sevinci yaşayanlardan biri də Zəngilanın Ağalı kənd sakini Namil Orucovdur. Ağalıya köç mərhələsində doğma torpağına qovuşan Orucovlar ailəsi artıq xeyli müddətdir ki, öz evlərindədirlər. 14 yaşında Ağalıdan çıxan N. Orucov deyir ki, hazırda öz ailəsi ilə illərdir həsrətini çəkdiyi torpaqda yaşayır: “Ailəmizdə beş nəfərik. Ağalıdan bizə yeni ev verdilər. İndi övladlarımla bu evdə yaşayırıq. Üç övladım Ağalıda məktəbə gedir”.

N. Orucov deyir ki, ata-anası da hazırda Ağalıda yaşayır: “ Ailəmiz ata-baba ocağından 28 il idi ki, didərgin düşmüşdü. Dünyada öz torpağına qovuşmaqdan gözəl hiss ola bilməz. Bu sevinci bizə yaşadan Ali Baş Komandana və şəhidlərimizə, qazilərimizə təşəkkür edirik”.

N. Orucovun sözlərinə görə, Ağalıda həyat öz axarı ilə davam edir. Amma hələ ki, N. Orucov işləmədiyini söyləyir: “Mən avtomobil ustasıyam. Bu işi Ağalıda qurmaq hələ mümkün deyil. Ona görə işimlə bağlı bir həftə Bakıda, bir həftə rayonda oluram. Gələcəkdə Ağalıda öz avto-təmir seximi qurmaq niyyətindəyəm”.

Ağalı sakini kəndlərinə növbəti köçün Yeni il ərəfəsində baş tutacağını söylədi. Bildirdi ki, qardaşının ailəsi də bayramı öz ata-baba ocağında qeyd edəcək. Bu isə sözlə ifadə olunacaq bir hiss deyil...

Qeyd edək ki, Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində aparılan uğurlu döyüş əməliyyatları ilə oktyabrın 20-də Zəngilan rayonu tam olaraq erməni işğalından azad olundu. Zəfərdən sonra ölkəmiz işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa və quruculuq işləri aparır. 2021-ci il aprelin 26-da Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoyub.

Ağalı kəndi heç bir il keçmədən ”Ağıllı kənd” konsepsiyası əsasında yenidən qurulur. Birinci ”Ağıllı kənd” pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, ”ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələridir. ”Ağıllı kənd təsərrüfatı” özündə kooperativ idarəetmə sistemini, müasir texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti özündə ehtiva edir. ”Ağıllı” təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verir.

Prezidentin azad edilmiş ərazilərdə kəndlərin ”Ağıllı kənd” konsepsiyası əsasında qurulması təşəbbüsü yerli sakinlər tərəfindən də müsbət qarşılanır. ”Ağıllı kənd” layihəsi bərpa olunacaq kəndlərimizə qayıdacaq insanların həyat şəraitinin yaxşılaşmasında, aqrar sahə ilə məşğul olacaq fermerlərimizin ”ağıllı kənd təsərrüfatı” sisteminə inteqrasiyasında mühüm rol oynayacaq.

Yüksək texnologiyaların inkişafı və aqrar sahədə bu cür həllərin reallaşması ”Ağıllı kənd” layihəsini zamanın zərurətinə çevirib. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu layihənin işğaldan azad olunmuş ərazilərdə tətbiqinə start verilməsi Böyük Qayıdış proqramının icrasında davamlı müsbət nəticələrə gətirib çıxaracaq.

”Ağıllı kənd”də müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. ”Ağıllı kənd təsərrüfatı”nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. Burada ”Ağıllı idarəetmə sistemi” data və təhlil mərkəzindən həyata keçiriləcək.

”2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na əsasən, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Əhalinin dayanıqlı məsklunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. İşğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsinə nail olunacaq.

Qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla bölgədə yaşayış və qeyri-yaşayış kompleksləri inşa ediləcək, müasir infrastruktura malik ”ağıllı şəhər və ağıllı kənd” konsepsiyaları həyata keçiriləcək. Bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək. Kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi qurulacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticədə, ilkin strateji mərhələdə əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı əsasda planlaşdırılan məskunlaşmasına nail olunacaq.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Radiotezliklər 3 halda ləğv ediləcək

***Radiotezliklər istifadə üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən 10 il müddətinə ayrılacaq.***

“Unikal”ın xəbərinə görə, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə edilən və parlamentin plenar iclasına tövsiyə edilən “Telekommunikasiya haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Qüvvədə olan qanunda radiotezliklərin istifadə üçün ayrılmasına zaman məhdudiyyəti nəzərdə tutulmayıb.

Radiotezliklərin ayrılması haqqında qərarın ləğv ediləcəyi hallar da artırılır. Beləliklə, aşağıdakı hallarda da radiotezliklərin ayrılması haqqında qərar ləğv ediləcək:

- Telekommunikasiya xidmətinin göstərilməsi üçün verilən lisenziya ləğv edildikdə, o cümlədən sellüar (mobil) telekommunikasiya xidmətləri üçün verilən lisenziyanın müddəti bitdikdə;
- Radiotezliklərin ayrılması haqqında qərar alındıqdan sonra 1 ay müddətində radiotezlik istifadəçisi tərəfindən müvafiq icra hakimiyyəti orqanını müəyyən etdiyi orqanla (qurumla) radiotezliklərdən istifadəyə dair müqavilə bağlanılmadıqda;
- radiotezlik istifadəçisi tərəfindən radiotezliklərdən istifadəyə bağlanılmış müqavilədə olan öhdəliklər yerinə yetirilmədikdə, o cümlədən tezlik nominalları üçün mövcud tariflərə uyğun 2 il müddətində ödənişlər tam aparılmadıqda və ayrılmış radiotezliklər 3 ay müddətində istifadə edilmədikdə.

Radiotezliklərdən istifadəyə dair müqavilədə tərəflərin hüquq və vəzifələri, radiotezliklərdən istifadə və ödəniş şərtləri, müqavilənin ləğvi və dəyişdirilməsi qaydaları və əsasları, habelə müqavilənin predmetinə dair digər mühüm şərtlər əks etdiriləcək. Radiotezliklərdən istifadəyə dair müqavilənin nümunəvi forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Radiotezliklərdən, radioelektron vasitələrdən və bu sahədə mülki təyinatlı qurğulardan istifadə qaydalarının müəyyənləşdirilməsi, onların icrasına nəzarət və telekommunikasiya vasitələrinin elektromaqnit sahəsinin monitorinqi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçiriləcək. Radiotezliklərin ayrılması haqqında qərar olmadan radiotezliklərdən istifadə etməklə radioelektron vasitələrin layihələndirilməsi, quraşdırılması və istismar edilməsi, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi radioelektron vasitələrin istifadəsinə icazə vərəqəsi olmadan radioelektron vasitələrin quraşdırılması istismar edilməsi qadağandır.

Radiomüşahidə və radionəzarət aparmaq üçün geniş tezlik diapazonlu radioqəbuledici qurğuların və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən güc meyarı həddindən artıq olan radioötürücülərin xüsusi icazə olmadan əldə edilməsi və idxalı qadağandır.

# 44 günlük xatirə

***Xatirələr... Bizi yaşadan xatirələr çoxdur, amma həyatım boyu unuda bilməyəcəyim xatirələr içərisində yaddaşlara həkk olan Qarabağ uğrunda 44 günlük II Vətən Müharibəsi əsas yer tutur. Müharibə başlandığı gündən keçirdiyim bütün həyəcanlar qələbə sevinci ilə birgə 44 günlük xatirə albomumda silinməz iz buraxıbdır.***

Azərbaycanın cənub-qərb hissəsində yerləşən Qarabağ bölgəsində planlı şəkildə Ermənistan və bu ölkə tərəfindən dəstək alan Qarabağın etnik ermənilərinin əksəriyyəti ilə Azərbaycan arasında baş vermiş etnik və ərazi münaqişəsi son vaxtlar həddini aşmışdır. Qondarma Dağlıq Qarabağ Respublikası ilə bağlı həll olunmamış münaqişənin gərginləşməsi hər birimizi ermənilərlə döyüşə hazır vəziyyətə gətirmişdi. Son günlər cəbhədən gələn xəbərlər ürəkaçan deyildir. Çoxları kimi mənim də səbr kasam dolmuşdur. 2020-ci ilin sentyabr ayının 26-dan 27-nə keçən gecə keçirdiyim narahatçılıq üzümüzə açılan səhərin sanki, qara rəngə boyandığından xəbər verirdi. Tez-tez sosial şəbəkələrdən, saytlardan və televiziya kanallarından izlədiyim son xəbərlərdən məlum oldu ki, 27 sentyabr səhər saat 6:00-da yaradılmış təmas xətti boyunca qarşıdurmalar başlamışdır. Digər xəbərlərdən biri isə möhtərəm Prezident İlham Əliyevin yaranmış vəziyyətlə bağlı "Əmr" komandasını verməsi idi. Düzü bu xəbəri oxuyanda həm sevindim, həm də kədərləndim. Sevindim ona görə ki, otuz ilə yaxın düşmən ayağı altında inildəyən, işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda savaşa başlayırdıq. Kədərləndim ona görə ki, bu savaşda qanlar töküləcək, anaataların və qız-gəlinlərin gözü yaşlı qalacaq, uşaqlar atasız böyüyəcəkdir. Birinci Vətən Müharibəsində olduğu kimi... Ürəyimin dərinliyində isə qəribə bir hiss vardı. Qarabağ uğrunda döyüşlərdə qalib gələ biləcəyimizi bildirən bir hiss...

Ölkədə sınaq dolu ağır və çətin günlər başladı. Azərbaycanda hərbi vəziyyət, komendant saatı və qismən səfərbərlik elan edildi. Bu sadə insanları çaşdırsa da təmas xəttindəki son vəziyyət bunu belə tələb edirdi.

1994-cü il may ayının 12-də bağlanan atəşkəsdən sonra Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasındakı 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 8-dək olan silahlı qarşıdurma xalqımıza dözülməz və dəhşətli günlər yaşatdı. Bəli, məhz beynəlxalq səviyyədə müsbət həllini tapmayan Ermənistan hökuməti tərəfindən yaradılan Qondarma Dağlıq Qarabağ Respublikası ilə bağlı münaqişələrin gərginləşməsi və ermənilər tərəfindən son vaxtlar atəşkəsin pozulması Qarabağ uğrunda II Vətən Müharibəsinin başlanmasına əsaslı səbəb oldu. Azərbaycana hərbi dəstək verməklə qardaş Türkiyə bütün dünyaya müsəlman ölkələrinin birliyini və Türk dünyasının böyüklüyünü beynəlxalq aləmdə bir daha təsdiqlədi.

İlk günlərdən Qarabağ uğrunda gedən döyüşlərin nə vaxt bitəcəyini hamı kimi mən də səbirsizliklə gözləyirdim. Müharibənin uzandıqca xalqımıza yaşadacağı çətinliklərlə yanaşı verəcəyimiz itkiləri düşünürdüm. Rastlaşdığım insanların üzündəki çaşqınlığı aydın sezsəm də, onların danışığından bəlli olurdu ki, qələbəyə inam çoxdur. Darda olan Vətənin harayına səs verən, könüllü cəbhəyə yollanan qorxmaz oğullarımızın rəşadəti də bu inamı artırırdı. Böyükdən kiçiyə qədər hamı cəbhə xəbərlərini izləyir və hərbiçilərimizə bacardıqları köməyi edirdilər. Milli Ordumuzun gücünə arxayın olaraq hamı kimi mənim də torpaqlarımızı geri ala biləcəyimizə ümidim böyük idi. Mövqeyindən, təbəqəsindən və siyasi əqidəsindən asılı olmayaraq möhtərəm Prezident İlham Əliyevin "Dəmir yumruq" əməliyyatında birləşən insanların gücü bu ümidin doğrulacağına əminlik yaradırdı.

Azərbaycanın bütövlüyü uğrunda canından keçən, öz qanlarını azad etdikləri torpaqlarda tökərək şəhidlik zirvəsinə ucalan oğullarımızın, eləcə də yaralıların xəbəri ürəkləri dağlayırdı. Cəbhədə qızğın döyüşlər gedirdi. Qarabağ uğrunda döyüşlərə qatılanların igidliyi, cəsarəti dillər əzbəri idi. Sumqayıt şəhərində yaşamış 19 yaşlı əsgər Cəbrayıl Dövlətzadənin sentyabr ayının 28-də əks-hücum əməliyyatında on bir zabitlə birlikdə komanda məntəqəsi uğrundakı döyüşdə, - Siz gəlməyin, yolunuzu gözləyəniniz var. Subayam, mən gedəcəyəm, - deyib, irəli atılması, əlbəyaxa döyüşdə erməni generalını və polkovnikini boğaraq öldürməsi, ölümündən sonra Milli Qəhrəman adına layiq görülən, Tovuz hadisələrində şəhid olan Polad Həşimovun qisasını mərdliklə alaraq şəhidlik zirvəsinə ucalması gənclərimizə əsl qəhrəmanlıq nümunəsidir. Bir "Vətən yaxşıdır" nəğməsi ilə dillər əzbəri olan 22 yaşlı gizir Xudayar Yusifzadənin Tovuz döyüşlərindən sonra Füzuli, Kəlbəcər və Zəngilanın azad olunması uğrundakı döyüşlərdə vuruşması, 22 oktyabrda Zəngilanın Ağbənd qəsəbəsi istiqamətində gedən döyüşdə tapşırığı yerinə yetirərkən şəhid olması xəbərini eşitmək olduqca ağır və acınacaqlı idi. Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda döyüş meydanlarında yaralı hərbiçilərimizə tibbi yardım göstərən və Qubadlı rayonunda oktyabr ayının 23-də şəhid olan çavuş və hərbi feldşer, iki uşaq anası Arəstə Baxışovanın qorxmazlığı Azərbaycan qadınının kişi hünərinə bərabər olan cəsarətindən söz açır. Özünün və iki övladının taleyini deyil, Ana Vətənin azadlığını düşünən müharibənin ilk şəhid xanımı Arəstə Baxışovanın qəhrəmanlığından qürur duyuruq. Vətən eşqi, sevgisi ilə 44 günlük müharibədə iştirak edən hər bir əsgər və zabit yeni tariximizi yazdı və yadda həmişəlik qaldı.



27 sentyabr 2020-ci ildən başlanan İkinci Qarabağ müharibəsində erməni silahlılarına qarşı əks-hücum nəticəsində oktyabr ayının 03-də Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, 04 oktyabr 2020-ci ildə isə Cəbrayıl rayonu və bir sıra kəndləri azad olan ilk torpaqlarımız oldu. Sonra isə 17 oktyabrda Füzuli, 18 oktyabrda Zəngilan və 25 oktyabrda Qubadlı rayonları Milli Ordumuzun qüdrəti və "Dəmir yumruq" əməliyyatı altında birləşən müxtəlif təbəqədən olan insanların gücü hesabına işğaldan azad olundu. İşğaldan azad olunan ilk torpağımız Suqovuşana uçrəngli bayrağımızı sancan hərbçimiz İlkin Fərzəliyevin əli düşərli oldu. Ardınca digər işğal altında olan torpaqlarımız azad olundu və hər birində bayraqlarımız yüksəklərdə dalğalandı. Ərazilərimizin azad olma sevincini təkcə, torpağından didərgin düşmüş məcburi köçkünlər yaşamırdı. Bu, əllərində üçrəngli bayrağımız küçələrə axışıb birbirini təbrik edən insanların, bütün xalqımızın sevinci idi

İtkilərimizin sayı artsa da cəbhədən xoş müjdələr də gəlməkdə idi. Camaat arasında gəzən söhbətlərdən bəlli olurdu ki, əsgərlərimiz Şuşadadır. Noyabr ayının 08-də Şuşanın tam azad olması ilə bağlı qələbə sevincli xəbərlər dövlət başçımız, qalib sərkərdə İlham Əliyevin məlumatından sonra təsdiqləndi. Tarixə qalib sərkərdə kimi adı yazılan ölkə başçısının "Şuşa sən azadsan" kəlmələrinin sədası hələ də qulaqlarımdadır. Bəli, ordumuzun Şuşa Qalasına sancdığı ücrəngli bayrağımız bir daha enməyəcəkdir. Milli Ordumuza və dövlətimizə inam və rəğbətin təcəssümü olaraq insanlar küçələrə axışıb böyük zəfəri qeyd edirdilər. Noyabr ayının 10-da isə üç dövlət - Azərbaycan, Ermənistan və Rusiya arasında saat 00:00-dan etibarən bütün döyüş əməliyyatlarını dayandıran atəşkəs bəyanatı imzalandı. Pilotsuz təyyarələrin, sensorların, ağır artilleriyanın və raket zərbələrinin və rəsmi sosial media hesablarının istifadəsi ilə yadda qalan 44 günlük müharibədə işğal olunmuş qədim torpaqlarını geri qaytaran Azərbaycan həmçinin Türkiyə və İranla həmsərhəd olan Naxçıvan dəhlizini əldə etməyə nail oldu. Ermənistan və Dağlıq Qarabağ arasındakı Laçın dəhlizi boyunca və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın nəzarəti altında olmayan hissəsində isə ən azı beş il müddətinə 2000 rus sülməramlı qüvvələri yerləşdirildi. Bu bəyanata əsasən noyabr ayının 20-də Ağdam, həmin ayın 25-də Kəlbəcər, dekabr ayının 1-də isə Laçın geri qaytarıldı. Azərbaycan 44 gün davam edən Qarabağ uğrundakı müharibədə 30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqlarımızın azadlığı naminə sülh yolu ilə razılıq əldə edə bilməyən beynəlxalq təşkilatlara və dövlətlərə özünün güclü və basılmaz dövlət olduğunu sübut edərək böyük zəfər çaldı. Bu zəfərə bütün Türk dünyası, dost ölkələr sevindi.



Rəna Təbəssüm
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Həyatda yaşayıb yaratmaq arzusu yarımçıq qalan, şəhidlik zirvəsinə ucalmaqla qəhrəmanlıqları ilə xatirəyə dönən 2783 nəfərin qısa ömrü tarix boyu yaşayacaqdır. Əsrlər keçsə də şəhidlik zirvəsinə ucalan igidlərimizin adı uca tutulacaq və onların göstərdiyi nümunə yeni nəslə örnək olacaqdır. Müstəqil, sivil Azərbaycanın ərazi bütövlüyü yeni nəslə əmanətdir.

Azərbaycan xalqı "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı ilə Vətənin candan əziz və dəyərli olduğunu minlərlə şəhid verməklə və zəfər yürüşü ilə dünyaya sübut etdi. Ulu Öndər Heydər Əliyevin vəsiyyətinə əməl edən və yarımçıq qalmış arzularını həyata keçirən qalib tarixi sərkərdə, möhtərəm Prezident İlham Əliyev qətiyyətli əmri ilə Azərbaycanın özünümüdafiə gücünün tükənməz və polad kimi möhkəm olduğunu bəşəriyyətə bəyan etdi.

Vətən yolunda canından keçən şəhidlərimizin qanı bahasına Azərbaycan tarixinin şanlı səhifəsinə düşən 8 Noyabr - Zəfər Bayramı əsrlər boyu həqiqətlərin carçısı kimi qalacaqdır. 44 günlük xatirənin yaşatdığı əsrlərin xatirəsinə çevrilərək doğma torpağa, Ana Vətənə olan məhəbbətin təcəssümünün təsvirinə çevriləcəkdir. Ölməz şəhidlərin adlarını yaşatmaq, bu gündən sabaha inamla boylanıb keçmişimizlə öyünmək, soyumuz və kökümüzlə qürur duymaq, tarixi həqiqətləri gələcək nəsillərə ötürmək Qarabağ Azərbaycandır, deyən hər bir Azərbaycan vətəndaşının borcudur. Bu, önəmli və ən ümdə vəzifəmz, Vətən qarşısında vətəndaşlıq borcumuzdur! Qarabağ Azərbaycandır!

44 günlük II Vətən Müharibəsində şəhid qanı ilə sulanan yollar bizi doğma və azad torpaqlarımıza aparır. Məcburi köçkünlük həyatı yaşayanlar daha köçkün adını daşımır. Dədə-baba yurdlarına qayıtmaq onlara nəsib oldu. Azad olunmuş torpaqlara yeni nəfəs dəyir, bu nəfəs uzun illər düşmən tapdağı altında qalan doğma torpaqlarımızı dirçəltmək istəyi ilə hər tərəfə yayılır. Doğma Qarabağa gedirik... Xarı bülbül bizi səsləyir...

# Leyla Əliyeva DOST Mərkəzində



***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olub.***

"Unikal" xəbər verir ki, ötən ilin oktyabr ayında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ölkəmizdə əlilliyi olan şəxslərin və şəhid ailələri üzvlərinin, digər həssas qrupların sosial dəstəklə təmin olunması, onların sosial inteqrasiyası sahəsində aparılan fəal dövlət siyasətinin növbəti təzahürüdür.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəz Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər çoxşaxəli fəaliyyət sahələrini əhatə edən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır. Mərkəz 121 nəfərlik auditorium, müxtəlif peşə-yaradıcılıq otaq və studiyaları, kitabxana, inzibati otaqlar, yeməkxanadan və s. ibarətdir. Hazırda mərkəzdə 266 nəfər benefisiar təlim alır. Onlardan 60 faizə qədəri əlilliyi olan şəxslərdir. Mərkəzdə 14 istiqamətdə (musiqi, kapoeyra, badminton, atçılıq, rəqs, təsviri incəsənət, dulusçuluq, floristika, bağçılıq və landşaft dizaynı, bədii oyma, dərzilik, modelyer sənəti , xalçaçılıq, səhnə, kulinariya, fotoqrafiya və s.) təlimlər təşkil olunur. Ötən bir ildə mərkəzdə 20-dən çox tədbir, forum, sərgi-satış yarmarkası, konsert proqramı və s. təşkil edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərkəzdə benefisiarların istedad və qabiliyyətlərinin inkişaf etdirilməsi üçün aparılan işlərlə, benefisiarların əl işlərindən ibarət sərgi və təlim prosesi ilə tanış olub, A.P.Çexovun eyniadlı pyesi əsasında mərkəzdə hazırlanmış "Təklif" tamaşasını izləyib.

Tamaşada kübar görünməyə çalışan cəmiyyətin problemləri əksini tapır. Vodevil (zarafat) janrında olan, 23 nəfər yaradıcı heyətdən ibarət tamaşanın 7 baş rol ifaçısından 5-i müxtəlif kateqoriyalı əlilliyi olan şəxslərdir.

# 240 min tondan çox pambıq təhvil verilib

***Respublikada mexanikləşdirilmiş üsulla kütləvi pambıq yığımı davam edir.***

"Unikal" xəbər verir ki, bu il Azərbaycanın 16 rayonunda ümumilikdə 100 min hektardan artıq sahədə pambıq əkini aparılıb. Ən çox pambıq Saatlı, Ağcabədi, Sabirabad və Bərdə rayonunlarının ərazisində əkilib. Bu rayonların ərazisində pambıq əkinlərinin sahəsi 11 min hektardan çoxdur. Ümumilikdə respublika üzrə pambıq əkini sahələrinin 45 faizdən çoxu bu 4 rayonun payına düşür.

Vegetasiya müddəti başa çatdıqdan sonra məhsulun kombaynlar vasitəsilə kütləvi yığımına start verilib. Məhsul yığımı prosesinə 447 kombayn və 3085 traktor yedəyi cəlb olunub. Pambıqyığan kombaynların sayı sahələrdən məhsulun 100 faizə yaxınını texnika vasitəsilə yığmağa imkan verir.

Bugünədək fermerlər tərəfindən kondisiya çəkidə 240 min tondan artıq pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Hazırda respublika üzrə pambığın orta məhsuldarlığı 23.04 sent/ha təşkil edir. Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, İmişli, Saatlı,



Yevlax və Zərdab rayonlarında orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksəkdir.

Dövlət dəstəyinin genişləndirilməsi fermerlərin pambıq əkininə marağını artırıb. Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu ildən tədarük məntəqələrinə təhvil verilən pambığa görə yalnız məhsul subsidiyası verilir. Eyni qərarla məhsul subsidiyasının məbləği hər tona görə 100 manatdan 170 manata qaldırılıb.

Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində 2022-ci ildə şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla iki dəfə artırılıb. Ötən il 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alırdısa, bu il təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilir. Məhsul subsidiyasına keçid və pambığn alış qiymətinin artırılması fermerləri aqrotexniki becərməni daha yaxşı aparmağa, daha çox məhsul istehsal edərək daha çox gəlir əldə etməyə sövq edir.

Respublikada pambıq yığımının optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

# Vətən müharibəsinin qalib şəhidi



***Azərbaycanın müqəddəs parçası olan Qarabağ torpaqlarını qanı bahasına geri alan, 30 illik həsrətə son qoyan minlərlə Vətən sevdalılardan olan Xaqani Anar oğlu Babazadə Astara rayonunun Kijəbə qəsəbəsində dünyaya göz açmışdı. Elə uşaqlıqdan ilahi bir məhəbbətlə bağlandığı Vətəni yaşatmaq üçün doğulmuşdu Xaqanı. Özünü bildən insanlara fayda verməyi, məqamında yurduna dayaq durmağı özünə həyat amalı seçir. Bu yurdsevər, vətənpərvər oğlan 2019-cu ildə ordu sıralarına yola düşəndə hər qarşı Vətən torpağının qisasını erməni dığalardan alacağına söz verir.***

Xaqani canından artıq sevdiyi doğma Azərbaycanın keşiyində ön cəbhədə durur. Hətta bir-neçə dəfə azğınlaşmış düşmənlə üzbəüz gələn Astaranın qartal balası onların layiqli cavabını verə bilir. Bu hünəri, Vətənə olan sevgisi ona əsgərlərin, zabitlərin dərin hörmətini qazandırır. Əsir torpaqların taleyini, xalqın xoşbəxt gələcəyini düşünən təmiz ürəkli, vicdanlı, olduqca qeyrətli Vətən keşikçisinin bütün hərəkətləri xidmət etdiyi hərbi hissədə nümunə göstərilir.

İkinci Qarabağ müharibəsi başlanan gündən Xaqani Babazadə ən qaynar nöqtələrdə düşmənlə haqq savaşımıza girir. 30 il əsir düşən Vətən torpağın bir qarışının azadlığını canından əziz bilən igid əsgər olduğu hər döyüşdə çoxlu sayda erməni dığasını məhv edir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Xocavəndin azadlığı uğrunda xüsusi rəşadət göstərir. Yağı gülləsini vecinə almadan qələbəyə doğru addımlayır və düşmənə vurduğu zərbələr gündən-günə artır. Hər zəfərdən sonra qəlbində olan Vətən sevgisi bir daha ilahiləşir.

Xaqanı Hadrud uğrunda gedən ağır müharibədə də "Təki Vətən yaşasın",- deyə ölümə meydan oxuya-oxuya son nəfəsinə qədər düşmənlə vuruşur. Tökdüyü qanla Vətənin daha bir guşəsində Azərbaycanın qələbə bayrağı dalğalanır...

Beləliklə, Xaqani ömrünün 19-cu ilində gələcək nəsillər üçün örnək olacaq şərəfli bir tarix yazıb gedir. Vətəndən oğul adını qazanan igid ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və digər medallara layiq görülür.

Qəhrəman Xaqani Babazadənin şəhidlik zirvəsi Vətən sevgisindən boy tutdu. Odur ki, saflıq dünyasına dönərək milyonların ürəyində özünə əbədi yurd saldı...

***Zəfər Orucoğlu, AJB üzvü***

# ASC Ucarda meliorativ tədbirlər həyata keçirir

***Ucarda yeni beton kanal çəkilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Ucar Suvarma Sistemləri idarəsi rayonun 28935 hektar suvarılan torpaq sahələrinə xidmət edir.***

Bundan 24835 hektarı öz axımı ilə 4100 hektarı isə mexaniki üsulla, yəni nasoslar vasitəsi ilə suvarılır. Əsas su mənbələri Yuxarı Şirvan kanalı, Türyançay çayı və Göyçay çaylarıdır. Rayonun suvarılan sahələrini suvarma suyu ilə təmin etmək üçün idarənin balansında ümumi uzunluğu 1600 km suvarma kanalları və 1498 km kollektor-dren şəbəkəsi mövcuddur. Bununda 40 km-dən artığı magistral, 123 km-ə yaxını təsərrüfatlararası 1437 km-i isə təsərrüfatdaxili suvarma kanallarıdır. Kollektor-dren şəbəkələrinin 662 km-i qapalı, 836 km-i isə açıq dren şəbəkəsidir. İdarə tərəfindən suvarma kanallarının lildən təmizlənməsi başlıca duran vəzifələrdən biridir. Belə ki, 2022-ci ilin əvvəlindən etibarən vegetasiya suvarmasının mütəşəkkil keçirilməsi ilə əlaqədar suvarma arxlarında 570 km məsafədə lildən təmizləmə işləri həyata keçirilib.

İdarənin balansında 13 ədəd nasos stansiyası mövcudur ki, onlardanda biri iki aqreqatlı elektrik nasos stansiyasıdır. Hazırda nasos stansiyaların hər biri işlək vəziyyətdədir. Cari ildə su itkilərinin qarşısını almaq üçün Ucar Suvarma sistemləri İdarəsi tərəfindən beton üzlüklü kanalın çəkilməsinə başlanılıb. Kanal xidməti ərazisində olan 1500 hektara yaxın əkin sahəsini suvarma suyu ilə təmin edəcək.

Bu il Ucar rayonunda 14427 ha taxıl, 1443 ha təzə yonca, 6690 ha köhnə yonca, 305 ha dənlik qarğıdalı, 335 ha təkrar silos qarğıdalı, 108 ha çoxillik tut-gər bağı, 300 ha meşə, 678 ha çəltik, 1400 ha bostan-tərəvəz və 3284 ha həyətyanı sahə suvarma suyu ilə təmin edilib.

***Hüseyn***

## Ərdoğan Ermənistanla münasibətlərdən danışdı

***"Ermənistanın Baş naziri Nikol Paşinyanla Praqada görüşmüşəm".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

O bildirib ki, Ermənistana mesaj verib: "Dedik ki, Azərbaycanla münasibətləri normal saxlasaz, biz də münasibətləri normallaşdırarıq. Amma hələ bunu görmürük. Çünki diaspor fəaliyyət göstərir və prosesə mənfi təsir göstərir".

## Putin Ermənistana səfər edəcək

***Rusiya Prezidenti Vladimir Putin Ermənistana səfər edəcək.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Ermənistan hökumətinin mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki,Rusiya lideri noyabrın 23-də İrəvanda keçiriləcək KTMT dövlət başçılarının sammitində iştirak edəcək. Həmçinin, Putin ötən gün Paşinyanla telefon danışığı zamanı Ermənistana səfərinin gündəliyi ilə bağlı məsələləri müzakirə ediblər.

*Gülayə Mecid*

## Ermənistan XİN rəhbəri Fransaya gedəcək

***Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Fransaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan XİN məlumat yayıb.

Səfər çərçivəsində Mirzoyanın Fransa xarici işlər naziri Katrin Kolonna ilə və digər rəsmi şəxslərlə görüşəcək.

## G20-də Rusiya nümayəndə heyətinə o başçılıq edəcək

***15-16 noyabrda İndoneziyanın Bali adasında keçiriləcək G20 sammitində Rusiya prezidenti Vladimir Putini əvəzləyəcək Rusiya nümayəndə heyətinə Rusiyanın xarici işlər naziri Sergey Lavrov başçılıq edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın İndoneziyadakı səfirliyinin mətbuat attaşesi Aleksandr Tumaykin məlumat verib.

"Rusiya nümayəndə heyətinə xarici işlər naziri Sergey Lavrov başçılıq edəcək", - diplomat bildirib.

Bundan əvvəl İndoneziya hakimiyyəti Rusiya prezidenti Vladimir Putinin Balidə keçiriləcək G20 sammitinə getməmək qərarını təsdiqləyib.

*Ağarza Elçinoğlu*

## "Bu, ukraynalılardan asılıdır" - Bayden

***"Ukrayna ilə bağlı heç bir məsələ Ukraynanın iştirakı olmadan həll olunmayacaq".***

"Unikal" xəbər verir ki, bunu ABŞ prezidenti Co Bayden mətbuat konfransındakı çıxışında deyib.

O, Ukrayna hökumətinin Rusiya ilə güzəştə gedə biləcəyi sualına "Bu, ukraynalılardan asılıdır...Nə edəcəklərini bilmirəm. Amma mən bir şeyi bilirəm: biz onlara nə edəcəyini deməyəcəyik"-deyə cavab verib.

Onun sözlərinə görə, rus qoşunları Xersonu tərk etdikdən sonra hər iki tərəf qış dövründə nə edəcəyini və güzəştə gedib-getməməyi qərara alacaq.

Həmçinin, Bayden İndoneziyada G20 liderləri ilə Rusiya müharibəsini müzakirə etmək niyyətində olduğunu bildirib:

"Mən G20-yə gedəcəyəm. Mənə dedilər ki, prezident Putinin orada olma ehtimalı azdır, lakin digər dünya liderləri olacaq... Və bizim növbəti addımların nə ola biləcəyini görmək imkanımız olacaq".

*Gülayə Mecid*

# Dünyasını dəyişən iki siyasətçi ABŞ Konqresinə üzv seçildi

***Pensilvaniyadan Entoni DeLuka və Tennessidən Barbara Kuper yenidən ABŞ Nümayəndələr Palatasına seçiliblər.***

"Unikal" xəbər verir ki, bu barədə "Fox News" məlumat yayıb.

Belə ki, oktyabrın 9-da 85 yaşında dünyasını dəyişən Entoni Deluka Pensilvaniyada 85% səslə yenidən ABŞ Nümayəndələr Palatasına üzv seçilib.



Eyni zamanda, oktyabrın 25-də 93 yaşında dünyasını dəyişən Barbara Kuper Tennessi ştatında keçirilən seçkilərdə qalib gəlib.

Yerli KİV-də yayılan məlumata görə, bəzi seçicilər həqiqətən DeLuka və Kuperin ölümündən xəbərsiz olublar.

Buna görə də yaxın vaxtlarda ştatlarda növbədənkənar seçkilər keçiriləcək.

# ABŞ Ukraynaya pilotsuz təyyarələrini göndərməkdən imtina etdi

***Ukrayna ABŞ-dan "Grey Eagle MQ-1C" pilotsuz təyyarələri almayacaq. ABŞ prezidenti Co Baydenin administrasiyası hesab edir ki, bu cür yardım münaqişənin kəskinləşməsinə gətirib çıxaracaq.***

"Unikal" xəbər verir ki, bu barədə "The Wall Street Journal" nəşri məlumat yayıb.

Bildirilir ki, Konqres üzvləri Bayden administrasiyasını "Grey Eagle MQ-1C" də daxil olmaqla, orta hündürlükdə olan silahlı dronları Ukraynaya köçürməməyə çağırıb.

"Bu, Ukraynanı Kiyevin aylardır tələb etdiyi müasir silahlardan məhrum edir. Pentaqon "Grey Eagle MQ-1C" pilotsuz təyyarələrinin verilməsinin münaqişəni gərginləşdirə biləcəyindən və Moskvaya ABŞ-ın mövqeləri hədəfə ala biləcək silahlarla təmin olunacağından ehtiyat edərək bu tələbi rədd etdi", - nəşr qeyd edib.

*Gülayə Mecid*



# "İrəvan bu təklifi noyabrın 8-də Bakıya təqdim edib" - Paşinyan

***Ermənistan Azərbaycanla sərhəddə demilitarizasiya zonası yaratmağı təklif edir.***

"Unikal" xəbər verir ki, bu barədə noyabrın 10-da Ermənistanın Baş naziri Nikol Paşinyan məlumat verib.

"Soçidə üçtərəfli görüş zamanı mən Dağlıq Qarabağ hakimiyyətinin beynəlxalq zəmanətlərlə Dağlıq Qarabağ ətrafında hərbisizləşdirilmiş zona yaratmaq təklifini təqdim



etdim", - Paşinyan hökumətin iclasında bildirib.

Baş nazir vurğulayıb ki, Ermənistan Azərbaycanla sərhəd zonasının demilitarizasiyası ilə bağlı təkliflər verir, qoşunların sərhəddən çıxarılmasını, üç kilometrlik hərbsizləşdirilmiş zona yaradılmasını təklif edir: "İrəvan bu təklifin yenilənmiş variantını noyabrın 8-də Bakıya təqdim edib".

*Ağarza Elçinoğlu*

# ABŞ və Yaponiya irimiqyaslı hərbi təlimlərə başladı

***Noyabrın 10-da Yaponiya və ABŞ, Çinin artan hərbi fəallığı fonunda bu ərazilərdə əməliyyat imkanlarını gücləndirmək üçün əsasən Yaponiyanın cənub-qərb adalarında və ətrafında genişmiqyaslı "Keen Sword" adlı birgə hərbi təlimə başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Kyodo News" məlumat yayıb.

Noyabrın 19-dək davam edəcək təlimlərdə Yaponiyanın Quru, Dəniz və Hava Özünümüdafiə Qüvvələrinin 26 min hərbçisi və Kosmik Qüvvələrin bölmələri də daxil olmaqla ABŞ ordusunun 10 minə yaxın əsgəri iştirak edəcək.

Bundan başqa, manevrlərə 20 Yaponiya və 10 Amerika gəmisi, 250 Yaponiya və 120 Amerika təyyarəsi cəlb olunacaq. Təlimlərə Avstraliya, Kanada və Böyük Britaniyadan 4 hərbi gəmi və iki təyyarə də qatılacaq.

*Gülayə*

# "Rusiya Xersonu təslim etməyəcək" - Jdanov

***"Rusiya Xersonu təslim etməyəcək. Bu, Ukrayna Silahlı Qüvvələrinə təhlükədən xəbər verir".***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bunu ukrayanlı hərbi ekspert Oleq Jdanov deyib.

O, Xersonda Ukrayna Silahlı Qüvvələr üçün tələnin olacağını proqnozlaşdırır.

"Mən bunu "xarici bayraq altında əməliyyat" adlandırıram. Xüsusi təyinatlılar və paraşütçülər (mülki geyimdə gizlənmiş) yaşayış məntəqələrində uzunmüddətli atışma nöqtələri yaradır və müqavimət göstərəcəklər. Bütün bunlar kameraya düşəcək, guya mülki şəxslər onlara müqavimət göstərir. Bəli, çox güman ki, planlaşdırırlar. Bizim ümumi heyətimiz həmişəki kimi Xersonu ələ keçirmək üçün hansısa hiyləgər plan tapacaq. Gəlin Xersona gedək,sonra görək hadisələr necə inkişaf edəcək",- deyə o, ifadə edib.



# Şahruddinin vəziyyəti necədir?



***Otən gün "Turan Tovuz"la oyunda zədələnən "Qarabağ"ın qapıçısı Şahruddin Məhəmmədəliyev durumu barədə paylaşım edib.***

"Unikal" xəbər verir ki, qapıçı instaqram paylaşımında vəziyyətinin yaxşı olduğunu qeyd edib: "Mənə görə narahat olan hər kəsə təşəkkür edirəm. Mən yaxşıyam. Təşəkkürlər Tovuz".

Qeyd edək ki, "Qarabağ" Azərbaycan Premyer Liqasının 3-cü turundan təxirə salınmış oyunda "Turan Tovuz"la qarşılaşıb və 2:0 hesablı qələbə qazanıb. Oyunun sonuna yaxın komanda yoldaşı Bədavi Hüseynovla toqquşan Şahruddin Məhəmmədəliyev boynu üstə yerə düşüb. O, oyunu davam etdirsə də, matçın final fitindən sonra meydanı xərəkdə tərk edib.

# Ağır atletika üzrə beynəlxalq məşqçilik kursu keçirilib

***5-9 noyabr tarixlərində Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasında Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) İnkişaf Proqramı çərçivəsində Beynəlxalq Məşqçilik Kursu keçirilib. Mühazirəçi qismində IWF-in Məşqçilik və Tədqiqat Komitəsinin üzvü, ABŞ-lı mütəxəssis, Doktor Kayl Pirs çıxış edib. Kursa arasında yeni yaradılan 20-dən çox yeni ağır atletika klubunun məşqçiləri, həmçinin digər mütəxəssislər olmaqla ölkənin bütün regionlarından 50-yə yaxın məşqçi qatılıb.***



"Unikal" xəbər verir ki, kurs zamanı bir çox mövzular barədə nəzəri və praktiki dərslər keçilib. Onların içərisində ağır atletika idman növündə təhlükəsizlik qaydaları, biomexanika və fiziologiya, məşqçilik təliminin və tədrisinin prinsipləri, bədənin qızışdırılması və əzələlərin elastik vəziyyətə gətirilməsi, ağırlığın qaldırılmasında baza hazırlığı, güc tətbiq etməklə ştanqın sinəyə alınması və birdən qaldırma, "Təkanla qaldırma hərəkəti"nin anlayışı, "Birdən qaldırma hərəkəti"ndə yanaşmaların artması prosesi, klassik yanaşmaların nümayiş etdirilməsi, müqavimətin artması prinsipləri, məşq proqramları, ağır atletika yarışları, antidopinq, qaynaq və məlumatlara giriş imkanları olub.

Amerikalı mütəxəssisin dərsləri interaktiv şəkildə keçib, dinləyicilərin sualları cavablandırılıb, yeni, müasir məşq, tədris metodları ətrafında geniş müzakirələr aparılıb. İştirakçıların fikrincə, kurs çox səmərəli olub, yeni biliklər əldə etmək, ağır atletikada müasir tendensiyaları öyrənmək baxımından böyük fürsət xarakteri daşıyıb. 4 gün ərzində məşqçilik üzrə iki kateqoriya (Level 1 və Level 2) mühazirələrdə iştirak edən mütəxəssislər, sonda imtahan verərək beynəlxalq məşqçilik sertifikatı əldə edə biliblər.

Mühazirəçi Kayl Pirs kurs barədə danışarkən təşkilatçılıqdan razılığını dilə gətirib. O, iştirakçıların həvəsli olmasını təqdir edib: "Hər şey əla təşkil olunmuşdu. Səmimi və xoş münasibət, peşəkar yanaşmayla qarşılaşdım. İstədiyimiz səviyyədə tədrisi edə bildik. Yeni, yaxud təcrübəli olmalarından asılı olmayaraq, bütün məşqçilərin istəkli olması, müxtəlif mövzulara toxunaraq müzakirələr aparmasını görmək çox xoş oldu. Bakıdan yaxşı təəssüratlarla ayrılıram və böyük məmnuniyyətlə bir də gəlmək istəyərəm".

# Pike: "Futbol köhnəlib"



***"Barselona"dan ayrılaraq karyerasını başa vuran Jerar Pike futbolun gələcəyindən danışıb.***

Qol.az xəbər verir ki, 35 yaşlı hücumçu futbolda bəzi qaydaların dəyişməli olduğunu düşünür:

"Biz uzun illərdir mövcud olan qaydaları dəyişdirməyə çalışmalıyıq. Çətin olduğunu başa düşürəm. Ancaq bu, bütün idman növlərində olur. Diqqəti cəlb etmək üçün bir yol tapmalıyıq. İndi dünyada idmanla yanaşı, bir çox fərqli məzmun var. Bir neçə saatınız var və bu müddət ərzində mümkün qədər çox məlumat əldə etmək istəyirsiniz. Mənim fikrimcə,90 dəqiqə çox uzundur. Biz daha maraqlı olacaq yeni qaydalar axtarmalıyıq. Məndə elə bir hiss var ki, indi futbol bir məhsul kimi köhnəlib".



# Samboçularımız dünya çempionatında iştirak edəcəklər

***Noyabrın 11-13-də Qırğızıstanın Bişkek şəhərində sambo güləşi və döyüş sambosu üzrə dünya çempionatı keçiriləcək.***

"Unikal" xəbər verir ki, yarışda Azərbaycanı yığma komandamızın idmançıları Kənan Babayev (58 kq), Elvin Bağırov (64 kq), Emil Həsənov (71 kq), Adil Adilzadə (79 kq), Ceyhun Hüseynov (88 kq), Eyvaz Nəsibli (98 kq), Toğrul Salmanov (+98 kq) təmsil edəcəklər.

İlin əsas yarışında dünyanın 50 ölkəsindən ən güclü samboçuların iştirakı gözlənilir.

# "Qarabağ" "Neftçi"nin rekordunu yenilədi

***"Qarabağ" Azərbaycan çempionatları tarixində yeni rekorda imza atıb.***

Ağdam təmsilçisi mövsümün ilk 13 oyununda qələbə qazanan ilk komanda olub. Qurban Qurbanovun futbolçuları bunu Misli Premyer Liqasında III turdan təxirə salınan matçda rəsmiləşdirib. Ağdam təmsilçisi səfərdə "Turan Tovuz"u 2:0 hesabı ilə məğlub edib.



"Qarabağ" cari çempionatadək iki dəfə mövsümə 34 xalla başlayıb. Bunadək rekord isə 1992-ci ilə 12 start qələbəsi ilə başlayan "Neftçi"yə məxsus idi. Həm bakılılar, həm də onların seriyasını dayandıran Sumqayıt "Xəzər"i ilk 13 matçda 12 qələbə qazanıb.

# Beylə DÇ-2022-də qadağa

***Uels millisinin futbolçusu Qaret Beyl DÇ-2022 ərzində qolf oynaya bilməyəcək.***

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, bu barədə yığmanın baş məşqisi Robert Peyc məlumat verib. O, qolfa böyük marağı olan "Los Anceles"in hücumçusu ilə bağlı deyib: "Əvvəlcə onun turnir ərzində 1 gün qolf oynamasını planlaşdırmışdıq. Ancaq sonra bunu da ləğv etdik. Orada yetərli zamanımız olmayacaq. Saat 4-də hava qaralmağa başlayacaq. Hər dörd gündən bir matçımız var. Qolf oynaması mümkünsüzdür".

Qeyd edək ki, Beylə Avro-2020-də də qolf oynamaq qadağası qoyulmuşdu.

